

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 06 - iyun 2021



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 6 - iyun 2021**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev Füzuli rayonunda olub ....4
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərinə səfəri ....6
"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi ....11
Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüş ....15
Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü və Silahlı Qüvvələr Günü münasibətilə paylaşımlar edib ....17

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub ....18
Ədliyyə Nazirliyində görülmüş işlərə və dövlət başçısının tapşırıqlarının icrasına həsr olunan kollegiya iclası keçirilib ....20
Ədliyyə naziri Kəlbəcərdə minaya düşərək həlak olanlar və yaralananlarla bağlı xarici həmkarlarına və beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb ....22
Azərbaycan və Türkiyə arasında hüquqi əlaqələr inkişaf edir ....23
Ermənistanın mina xəritələrini verməsi üçün beynəlxalq ictimaiyyətə çağırış edilib ....24
Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı ....25
Yeni istifadəyə verilmiş Masallı Məhkəmə Kompleksi ictimaiyyətə təqdim olunub ....26
Hakimlərin Seçki Komitəsinin məlumatı ....30
Ədliyyə Nazirliyi tərəfindən Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı "açıq qapı" günü keçirilib ....30
Ədliyyə Akademiyasında ....31

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanunu ....33
"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun 1374 nömrəli Fərmanı ....37
"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun 1375 nömrəli Fərmanı ....39
"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi" ....40
"Azərbaycan dilinin orfoepiya normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 175 nömrəli Qərarı ....47
"Azərbaycan dilinin orfoepiya normaları" ....47

# Prezident İlham Əliyev Füzuli rayonunda olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonunda olublar.**




Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq




Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında




"Füzuli" yarımstansiyasının açılışı

Dövlətimizin başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar. Məlumat verilib ki, hava limanının tikintisinə yanvar ayında başlanılıb, 3 min metr uzunluğunda, 60 metr enində uçuş-enmə zolağı nəzərdə tutulur. Təyyarələrin enişi iki tərəfdən də təmin olunur. Bu günə uçuş-enmə zolağının və perronun tikintisində torpaq işləri bitib, yol geyiminin tikintisi aparılır. Ölkə rəhbəri tikintidə istifadə olunan materiallarla, aerovağzal kompleksinin binasının, qüllənin inşası, aeronaviqasiya işləri ilə də maraqlanıb, uçuş enmə zolağında görülmüş işlərlə tanış olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. Su anbarının texniki göstəriciləri barədə məlumat verilib ki, ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 62 min hektar sahəni suvarmağa imkan verirdi. 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal edildəndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

Sonra Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olan dövlətimizin başçısına məlumat verilib ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr olacaq. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaq.

Azərbaycan Prezidenti İlham Əliyev "Füzuli" yarımstansiyasının açılışını edib. Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya ölkə başçısının işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Bildirilib ki, yarımstansiya, o




**Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa olunan körpüdə görülən işlərlə tanışlıq**




**Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində tunelin təməlinin qoyulması**

cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub və komplektləşdirilib. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Dövlətimizin başçısı "Füzuli" yarımstansiyasını işə salıb. Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

Sonra Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq "Şükürbəyli" yarımstansiyasının da məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını edib.

Bildirilib ki, işğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilib. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilən digər rayonlarda tikiləcək yarımstansiyaların Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün yenidən qurularaq genişləndirilən "Şükürbəyli" yarımstansiyasına İmişli yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilib. Eyni zamanda, "Şükürbəyli" yarımstansiyasından Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilib və həmin xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilib. Paralel olaraq hazırda "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən 110/35/10 kilovoltluq yarımstansiyalara ikidövrəli 110 kilovoltluq yüksək gərginlikli elektrik veriliş xətti çəkilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olub.

Məlumat verilib ki, Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr olacaq. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək bu körpü də hazır olacaq.

Dövlətimizin başçısı həmçinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub. Bildirilib ki, burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərinə səfəri

## "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması





Türkiyə Prezidentinin Qarabağ torpağında qarşılanması



Rəsmi foto



Təkbətək görüş

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olub.**

Şuşa şəhərinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunda qarşılayıb. Sonra Şuşa şəhərinə yola düşən dövlət başçıları yolüstü söhbət edib, şəhərin ətraf ərazilərini seyr edib, xatirə şəkilləri çəkdiriblər.

İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşada rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşılayıblar. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Türkiyə və Azərbaycanın dövlət himnləri səsləndirilib, rəsmi foto çəkdirilib.

Sonra Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü olub, Prezident İlham




"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması mərasimi




Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatlarla çıxışı

Əliyev "Baykar" şirkətinin baş direktoru Lutfi Haluk Bayraktara "Qarabağ" ordeni təqdim edib.

Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri önünə gəliblər.

İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qoyulub.

Həmin gün "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. Bəyannaməni Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

Sonra dövlət başçıları mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı Türkiyə Prezidentini Qarabağ torpağında - Şuşada salamlayaraq səfərin tarixi əhəmiyyətini qeyd edib, imzalanmış Birgə Bəyannamənin - Müttəfiqlik haqqında Bəyannamənin əlaqələrimizi ən yüksək zirvəyə qaldırdığını vurğulayıb. Bildirib ki, Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır.

Bu gün Türkiyə və Azərbaycanın bir-birinə dünya çapında ən yaxın olan ölkələr olduğunu deyən Prezident İlham Əliyev tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığının birliyimizi təmin etdiyini, ölkələrimizin dünya miqyasında nadir əməkdaşlıq, iş birliyi,





Şuşada "Xan qızı" bulağında

müttəfiqlik nümunəsi göstərdiyini vurğulayıb.

İmzalanmış Bəyannamənin tarixə əsaslandığını, orada xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapdığını, 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edildiyini diqqətə çatdıran Azərbaycan Prezidenti Bəyannamədə təsbit olunmuş bir çox önəmli məsələlərə toxunub.

Şuşa şəhərinin işğaldan azad olunmasında Azərbaycan Ordusunun qəhrəmanlığından bəhs edən dövlətimizin başçısı İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Azərbaycana birmənalı, dəqiq və açıq dəstəyini vurğulayıb, habelə müharibə zamanı türk xalqının məhəbbətininin, sevgisininin, həmrəyliyininin bir daha şahidi olduğumuzu, bunun əyani təzahürü olaraq Türkiyə mediasının da ən təhlükəli anlarda xidmətlərini qeyd edib.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsinin tarixdə qaldığını, 44 günlük müharibə nəticəsində Ermənistan ordusunun tam məhv edildiyini diqqətə çatdıraraq artıq yeni dövrün başladığını bildirib, tarixi Azərbaycan şəhəri olan Şuşanın 30 il işğal altında qalmasına baxmayaraq əyilmədiyini, öz milli ruhunu, ləyaqətini qoruya bildiyini diqqətə çatdırıb, qardaş ölkənin Cümhurbaşqanının bu tarixi şəhərdə bizim qonağımız olmasından məmnunluğu ifadə edib. Qeyd edib ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı əbədidir!

Sonra Türkiyə dövlətinin başçısı bəyanatla çıxış edərək qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağın sahiblərinə qovuşduğunu və erməni zülmündən, erməni işğalından azad edildiyini bildirib. 15 İyun - Azərbaycanın Milli Qurtuluş Günü münasibətilə ümummilli lider Heydər Əliyevi rəhmətlə anaraq qəhrəman Azərbaycan Ordusunun Qarabağ Zəfərinin sevincini bir daha bölüşüb, altı ay sonra qədim Şuşa şəhərində dövlətimizin başçısı ilə bir yerdə olmaqdan böyük məmnunluq duyduğunu bildirib, Azərbaycan xalqının Qarabağ Zəfərini bir daha təbrik edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin uzaqgörən liderliyi və Müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izlədiyini, Şuşaya gələrkən fasiləsiz iş görüldüyünün, infrastruktur sahəsində intensiv iş aparıldığının şahidi olduğunu vurğulayıb. Bildirib ki, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik.

Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də hər cür dəstəyi verəcəyini söyləyən Prezident Rəcəb Tayyib Ərdoğan atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yarandığını, Türkiyə olaraq coğrafi qonşuluq əlaqələrini daha dərin əməkdaşlıqlara yönəltmək istəyində olduğunu bildirib, Rusiya,





**“Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı musqili kompozisiyanın təqdimatında**

Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın olduğu altılı platforma ilə birlikdə bölgənin rahatlıqla, sülh içində yaşanan bir bölgə olmasını vurğulayıb.

Qeyd edib ki, bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsin nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığı təşviq etməyə istiqamətlənməsi əsas şərtdir.

Ali qonaq həmçinin son dövrdə ikitərəfli ticarətdə mühüm addımlar atıldığını, Türkiyənin bir çox şirkətlərinin Azərbaycanda mühüm investisiyalarının olduğunu, qarşıdakı dövrdə ticari və iqtisadi əməkdaşlığın miqyasını daha da genişləndirəcəyini bildirib, Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsinin müəyyənləşdirildiyini, Türkiyə ilə Azərbaycan arasındakı bu Bəyannamənin bir sıra məsələləri əhatə etdini diqqətə çatdırıb.

Vurğulayıb ki, Türkiyə olaraq qədim Şuşa şəhərində ən qısa müddətdə, baş konsulluq açmağı planlaşdırırıq. Digər tərəfdən, Azərbaycanın Cənubi





Zəngəzur dəhlizi layihəsini çox əhəmiyyətli hesab edir və onu da dəstəkləyirik. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacaqdır. Bu, çox böyük əhəmiyyət kəsb edir.

Tədbirdən sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Şuşada "Xan qızı" bulağında olublar. Türkiyə Prezidentinə məlumat verilib ki, Şuşa işğaldan azad olunandan qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil, xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq yenə də sakinlər və şəhərin qonaqlarının istifadəsindədir.

Daha sonra prezidentlər və ailə üzvləri avtobusla Cıdır düzünə yola düşüblər. Yolüstü dövlətimizin başçısı, "Qarabağ" oteli, Gövhərağa məscidi, Şuşada olan məhəllələr, məscidlər, bulaqlar, Xarıbülbül çiçəyi, Vaqifin məqbərəsi barədə məlumat verib.

Həmin gün Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya təqdim edilib. Prezidentlər və ailə üzvləri musiqili kompozisiyaya baxıblar.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ

atlarının möhtəşəm çıxışının müşayiətilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, "Mirvari" rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri, "Natiq" ritm qrupunun ifaları təqdim olunub. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səslənib.

Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hədiyyə olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.

**İyunun 16-da "Avro-2020"nin A qrupunda yer alan Türkiyə milli komandası Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər.

Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola salıblar.





Bakı Olimpiya Stadionunda Türkiyə milli komandası ilə Uels yığması arasında keçirilən futbol oyunu

Ölkəmizə səfəri çərçivəsində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstəsi qoyub. Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə gül dəstəsi qoyulub.

Ali qonaq həmçinin, Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə gül dəstəsi qoyub. Eyni zamanda Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstəsi düzüb.

Həmin gün Türkiyə Prezidenti Milli Məclisdə olub, əvvəlcə Parlamentin sədri Sahibə Qafarova ilə görüşüb, sonra Milli Məclisdə çıxış edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 16-da başa çatıb.

# Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında

# ŞUŞA BƏYANNAMƏSİ

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsasla-

nan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin, sadəcə, iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası

Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

**Azərbaycan Respublikasının**
**Prezidenti**
**İlham Əliyev**

**Türkiyə Respublikasının**
**Prezidenti**
**Rəcəb Tayyib Ərdoğan**

# Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb.**



Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı görüşdə nitq söyləyib.

Prezident İlham Əliyev hərbçiləri və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edib.

Görüşün əvvəlində Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilib.

Dövlətimizin başmısı şəhidlərimizin qisasının döyüş meydanında alındığını, İkinci Qarabağ müharibəsinin Azərbaycanın tam Qələbəsi ilə nəticələndiyini vurğulayıb.

Bildirib ki, iyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu gün qürur hissi ilə deyə bilərəm ki, biz Silahlı Qüvvələr Gününü



müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Birinci Qarabağ müharibəsini bizim üçün böyük faciə, milli faciə adlandıran ölkə rəhbəri o vaxt səkkiz milyonluq əhalimizin bir milyonunun qaçqın və məcburi köçkün vəziyyətində yaşamalı olduğunu, iqtisadiyyatımızın, demək olar ki, tamamilə dağıdıldığını, sənaye potensialının məhv edildiyini bildirib, Azərbaycan xalqının o ağır günlərdə müdriklik göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etməklə Azərbaycanda işlərin müsbət istiqamətdə getməyə başladığını söyləyib, nizami ordu quruculuğunun da məhz o illərdə başladığını diqqətə çatdırıb.

Azərbaycan Prezidenti beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək başlıca vəzifə olduğunu qeyd edərək aparıcı beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası tərəfindən həqiqəti əks etdirən və maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul edildiyini söyləyib.

Qeyd edib ki, digər məsələ ikitərəfli formatda əlaqələrimizin gücləndirilməsi idi. Bu gün Azərbaycanla daha yaxın əlaqələr qurmaq istəyən ölkələrin sayı durmadan artır və İkinci Qarabağ müharibəsi onu bir daha göstərdi.

Onu da əlavə edib ki, bununla paralel olaraq iqtisadi güc toplamalı idik. "İqtisadi müstəqillik olmasa, biz istədiyimizə nail ola bilmərik" - deyən dövlət başçısı bu gün iqtisadi göstəricilərə görə Azərbaycanın dünyada aparıcı yerlərdə olduğunu vurğulayıb.

Eyni zamanda hərbi sahədə də çoxşaxəli hazırlıq getdiyini bildirən Ali Baş Komandan ordumuzun silah-sursatla təchiz edilməsinə nail olunduğunu, Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyev hazırda böyük quruculuq işlərinə start verildiyini, müharibədən keçən cəmi 7 ay ərzində nə qədər böyük işlər görüldüyünü, buna texniki imkan, kadr potensialı hesabına nail olunduğunu söyləyib. Bildirib ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Dövlətimizin başçısı 2016-cı ilin Aprel döyüşlərindən, ondan iki il sonra Naxçıvan əməliyyatından dərs almayan Ermənistanın İkinci Qarabağ müharibəsini əbədi yadda saxlayacaqlarını bildirib. Qeyd edib ki, biz güclü iradə göstərdik, cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq. İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq.

Ölkə rəhbəri çıxışında həmçinin vurğulayıb ki, biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır.

Müharibədən sonra artıq müvafiq göstərişlərin verildiyini, yeni kontraktların imzalandığını deyən Prezident İlham Əliyev yeni silahların, texnikanın, müasir texnologiyaların əsasında texnikanın alınması prosesinin başladığını, Silahlı Qüvvələrimizin say tərkibinin, həmçinin müharibənin nəticələrini və gedişatını düzgün təhlil edərək, hərbi gücümüzün artırılacağını diqqətə çatdırıb.

Çıxışının sonunda bir daha vurğulayıb ki, biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü və Silahlı Qüvvələr Günü münasibətilə paylaşımlar edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Milli Qurtuluş Günü münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Sizi Milli Qurtuluş Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram! Arzu edirəm ki, Azərbaycanın uğurlu inkişafı davamlı olsun, ölkəmizdə həmişə sülh, əmin-amanlıq, sabitlik, birlik və rifah hökm sürsün! Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir:

"Bu gün biz böyük fəxarətlə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününü qeyd edirik! Sözlə ifadə edilməsi çətin olan hisslərlə qeyd edirik. Biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə və dözümlülüyünüzə görə sizə minnətdarıq! Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə görə! Vətənə sədaqətlə xidmət etmək nümunəsinə görə! Siz bizim fəxrimizsiniz! Bu əlamətdar gündə Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Bütün əsgər və zabitlərimizi səmimi-qəlbdən təbrik edirəm, Uca Tanrıdan onların hər birinə möhkəm cansağlığı, sevinc, sevgi və səadət, doğma Azərbaycanımıza sülh və əmin-amanlıq bəxş etməsini diləyirəm!".



# Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub

**Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də ölkə rəhbərliyinə qayıdışı xalqımızın və müstəqil dövlətimizin xilasının başlanğıcı olmaqla bu tarixi hadisə respublikamızda Milli Qurtuluş günü kimi geniş qeyd edilir.**

Bu əlamətdar gün münasibətilə ədliyyə orqanlarında xüsusi karantin rejiminə əməl olunmaqla tədbirlər təşkil edilib, Ulu Öndər Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələri qoyulub, əziz və işıqlı xatirəsi dərin ehtiramla yad olunub.



Ədliyyə naziri Fikrət Məmmədov Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında fədakar fəaliyyətindən, xilaskarlıq missiyasından bəhs edib, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm xidmətlərindən danışıb. Bildirib ki, dahi şəxsiyyət Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin bu arzusunu, ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız 30 illik erməni işğalından azad edildi, xalqımız öz dədə-baba yurdlarına qovuşdu.

Ulu Öndərin uca ruhunun şad olduğunu söyləyən nazir dövlət başçısı tərəfindən və Heydər Əliyev Fondunun rəhbəri, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə azad olmuş ərazilərimizdə nəhəng bərpa-quruculuq işlərinin aparıldığını qeyd edib, torpaqlarımızın dirçələcəyini və orada yenidən həyatın tezliklə qaynayacağını vurğulayıb.

Milli Qurtuluş Günü münasibətilə gənc ədliyyə işçiləri və könüllüləri ilə "Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası" mövzusunda onlayn mühazirə keçirilib.

Tədbirə dəvət olunmuş Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov müstəqil dövlətimizin qurtuluş tarixi, Heydər Əliyevin xilaskarlıq missiyası barədə məruzə ilə çıxış edib, Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə müstəqilliyimizin qorunub möhkəmləndiyini, dövlətlə xalqın birliyinin təmin edildiyini, demokratik hüquqi dövlətin qurulduğunu vurğulayıb.

Çıxış edən gənclər Ulu Öndərin dövlətçilik amallarına daim sadiq qalacaqlarını, dahi öndərin işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi







yaşayacağını söyləyiblər.

Tədbirin davamı olaraq ədliyyə nazirinin müavini Toğrul Musayevin iştirakı ilə qonaq nazirlikdə Heydər Əliyevə və ədliyyə tarixinə həsr olunmuş muzeylə tanış olub, dahi şəxsiyyətin siyasi irsinin indiki və gələcək nəsillərə örnək olduğu qeyd edilib. Ulu Öndər Heydər Əliyevin yolu ilə gedən respublikamızın ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli tərəqqisi, o cümlədən ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə fikir mübadiləsi aparılıb.



Bu ərəfədə dövlət başçısının iştirakı ilə Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binasının, həmçinin Masallı Məhkəmə Kompleksinin videoformatda təqdim olunmaqla istifadəyə verildiyi qeyd edilərək məhkəmə-hüquq islahatlarının vətəndaşların hüquqlarının etibarlı təminatına, ədalət mühakiməsinə əlçatanlığın asanlaşmasına, məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə xidmət etdiyi vurğulanıb.

Masallı Məhkəmə Kompleksinin media-tur təşkil olunmaqla ictimaiyyətə təqdimatında iştirakını xatırladan A.İsgəndərov müasir məhkəmə binalarının istifadəyə verilməsinin məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə olduğunu bildirib, kompleksdə şəffaf və innovativ məhkəmə fəaliyyətinin təşkili, xüsusilə vətəndaşların rahatlığı üçün yaradılmış müasir şəraitlə tanışlıqdan məmnunluğunu ifadə edib.

Bayram ərəfəsində gənc ədliyyə işçiləri və könülləri, həmçinin nazirlikdə istehsalat təcrübəsi keçən "ADA" Universitetinin hüquq fakültəsinin tələbələri Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə yaradılmış və 44 günlük Vətən müharibəsində xalqımızın parlaq Zəfərinin və ordumuzun qəhrəmanlığının təcəssümü olan Hərbi Qənimətlər Parkı ilə tanış olublar.

Milli Qurtuluş Günü ilə bağlı, həmçinin Heydər Əliyev muzeyində zəngin və maraqlı ekspozisiyalar, kinozalda filmlər, eləcə də foto və video slaydlar nümayiş etdirilib. Nazirliyin saytında yaradılmış əbədiyaşar liderlə bağlı xüsusi bölmə zənginləşdirilib, sosial şəbəkə səhifələrində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən materiallar paylaşılıb, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib.

# Ədliyyə Nazirliyində görülmüş işlərə və dövlət başçısının tapşırıqlarının icrasına həsr olunan kollegiya iclası keçirilib






**İyunun 30-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib.**

İclasda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisi, işğaldan azad edilmiş torpaqlarımızın bərpası, bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələrin həyata keçirilməsi qeyd olunub.

Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri və Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyəti qeyd olunaraq bu mühüm sənədin ölkələrimizin ümumi maraqlarının və təhlükəsizliyinin qorunmasına xidmət etdiyi vurğulanıb.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemində islahatların davam etdirildiyi, yüksək texnoloji məhkəmələrin yaradıldığı, o cümlədən ötən ay Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin müasir binasının və Masallı Məhkəmə Kompleksinin istifadəyə verildiyi bildirilib. Qeyd edilib ki, məhkəmə binalarında şəffaf və innovativ fəaliyyətin təşkili, xüsusilə vətəndaşların rahatlığı üçün yaradılmış müasir şərait media-tur təşkil edilərək ictimaiyyətə təqdim olunub.

İclasda ədliyyə fəaliyyətin əsas istiqamətləri üzrə cari ilin birinci yarımilində görülmüş işlər müzakirə olunaraq məlumat verilib ki, ölkədə iqtisadi inkişafa, əhalinin rifahının yaxşılaşdırılmasına yönələn qanunvericiliyin təkmilləşdirilməsi işində iştirak edən nazirlik tərəfindən 1.500-dən artıq hüquqi akt layihəsi hazırlanıb, 1.400-dən çox akt ekspertizadan keçirilib.

Əhalinin hüquqi biliklərinin artırılması məqsədilə milli qanunvericiliyin yeni vahid elektron bazası (e-qanun.az) istifadəyə verilib, funksionallığı, interaktivliyi və əlçatanlığı ilə fərqlənən bu elektron resursa cari ildə daxilolmaların sayı 1,1 milyonu ötüb. Həmçinin vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı maarifləndirilməsi məqsədilə nazirliyin sosial şəbəkə səhifələrinin imkanlarından istifadə edilməklə mətbuat konfransı və onlayn brifinqlər keçirilib.

Dövlət başçısının vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları diqqətdə saxlanılaraq 1.900 vətəndaş bilavasitə və videoformatda

qəbul edilib, müraciətlərlə bağlı zəruri tədbirlər görülüb.

Ölkə iqtisadiyyatının inkişafı və mülki dövriyyənin artması nəticəsində notariat hərəkətlərinin sayı əvvəlki dövrlə müqayisədə 14 faiz çoxalaraq 2 milyonu ötüb. Həmçinin birinci yarımildə 128 minə yaxın vətəndaşlıq vəziyyəti aktları, 53.400-dən çox doğum, habelə ötən ilin eyni dövrü ilə müqayisədə 20 faizdən çox - 22 minə yaxın nikah dövlət qeydiyyatına alınıb.

Eyni zamanda, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynayan məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması üzrə ardıcıl tədbirlərin davam etdirildiyi qeyd olunaraq altı ayda 345 mindən çox icra sənədinin icrasının təmin edildiyi və 300 milyonadək vəsaitin ödətdirildiyi bildirilib.

Cari ildə həmçinin, azadlığın məhdudlaşdırılması və digər alternativ cəzalara məhkum olunmuş şəxslərə 2.800-dən çox elektron qolbaq tətbiq edilib, həmin cəzaların icrasının daha səmərəli təşkili və nəzarətin gücləndirilməsi məqsədilə Bakı şəhər probasiya idarəsi yaradılaraq fəaliyyətə başlayıb.

Bundan əlavə, birinci yarımildə Məhkəmə Ekspertizası Mərkəzində 41 ekspert ixtisası üzrə 13 mindən artıq işə baxıldığı, 348 minə yaxın tədqiqat obyekti üzrə müvafiq rəylərin verildiyi bildirilib. Nazirlik tərəfindən bələdiyyə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsinə dair tədbirlərin görüldüyü, 2021-ci ildə 38 minədək bələdiyyə aktı üzrə inzibati nəzarət həyata keçirildiyi, 1.225 aktın nazirliyin təklifləri əsasında ləğv edildiyi və ya dəyişdirildiyi, habelə qanunsuz verilmiş 2.400 hektardan çox torpaq sahəsinin geri qaytarıldığı qeyd olunub.

Eyni zamanda, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq cari ildə bir sıra mötəbər beynəlxalq forumlarda iştirak edildiyi, bu zaman Ermənistanın qanunsuz əməlləri, xüsusilə azad edilmiş torpaqlarımızda işğal dövründə quraşdırdıqları mina xəritələrini verməsi ilə bağlı çağırışların edildiyi, həmçinin xarici ölkələrin ədliyyə nazirlərinə və nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlandığı diqqətə çatdırılıb.

Kollegiyada "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlər qeyd olunaraq ədalət mühakiməsinə əlçatanlığı genişləndirən, şəffaflığı və operativliyi təmin edən e-məhkəmənin keyfiyyətli və dayanıqlı fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər müəyyən edilib, bu sahədə vəzifələrə dair Təlimat təsdiq olunub.

İclasda qarşıda duran vəzifələr müzakirə edilərək ədliyyə fəaliyyətinin dövlət başçısının yüksək tələbləri səviyyəsində qurulması, yol verilən xarakterik nöqsanların səbəb və şəraitinin aradan qaldırılması, vətəndaşlara layiqli xidmətlər göstərməklə məmnunluğun təmin edilməsi, şəffaflığın artırılması ilə bağlı tapşırıqlar verilib, etik davranış qaydalarına dönmədən əməl olunması və korrupsiyanın yolverilməzliyi diqqətə çatdırılıb.

Eyni zamanda ölkə başçısı tərəfindən yaradılmış Əlaqələndirmə Qərargahı çərçivəsində azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər məsələlərin həlli ilə bağlı nazirliyin qarşısında duran vəzifələrin mütəşəkkil icrasının diqqətdə saxlanılması vurğulanıb. Ədliyyə fəaliyyətinin istiqamətləri üzrə əsas prioritetlərə dair, o cümlədən ədliyyənin inkişafına dair 2019-2023-cü illər üzrə Dövlət Proqramının icrası, ictimai iştirakçılığın səmərəliliyinin artırılması, ədliyyə xidmətləri ilə innovasiyaların tətbiqi ilə bağlı və digər konkret tədbirlər müəyyən edilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ sənəd layihələri təsdiq edilib, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri Kəlbəcərdə minaya düşərək həlak olanlar və yaralananlarla bağlı xarici həmkarlarına və beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb



**Ədliyyə naziri Fikrət Məmmədov iyunun 4-də Kəlbəcər rayonunda Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən quraşdırılmış minaya düşərək həlak olması və yaralanması ilə əlaqədar ATƏT-in Minsk Qrupunun həmsədr və bütün digər üzv ölkələrinin ədliyyə nazirlərinə, BMT-nin və Avropa Şurasının insan hüquqları üzrə rəhbər vəzifəli şəxslərinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidentinə müraciətlər ünvanlayıb.**

Müraciətlərdə 30 illik erməni işğalı altında olan torpaqlarımızın Vətən müharibəsində Qələbəmizlə azad edildiyi, o cümlədən ötən ilin noyabrında imzalanmış üçtərəfli bəyanatla 3 rayonun qaytarıldığı və 750 min məcburi köçkünün öz yurdlarına qayıtmasının nəzərdə tutulduğu qeyd olunub.

Lakin Ermənistan tərəfindən soydaşlarımızın geri qayıtmasına əngəl törətmək və mülki əhali arasında növbəti qurbanların olması məqsədilə ərazilərimizin minalandığı və bununla bağlı Azərbaycanın dəfələrlə etdiyi müraciətlərə, beynəlxalq ictimaiyyətin çağırışlarına baxmayaraq Ermənistanın qeyri-insani davranaraq beynəlxalq normaları, o cümlədən BMT-nin 1949-cu il Cenevrə və İnsan hüquqlarına dair 1950-ci il Avropa konvensiyalarının tələblərini kobud şəkildə pozmaqla mina xəritələrini qəsdən vermədiyi vurğulanıb.

Ermənistanın insanlığa qarşı bu cinayətkar əməlləri nəticəsində müharibədən sonra dinc sakinlər və sülhməramlılar olmaqla 140 nəfərdən çox şəxsin erməni işğalçılar tərəfindən quraşdırılmış minalara düşdüyü və onlardan 27-nin həlak olduğu təəssüflə qeyd edilib. Bildirilib ki, sonuncu faciəvi hadisə isə iyunun 4-də Azərbaycanın Kəlbəcər rayonunda baş verib və minanın partlaması nəticəsində peşə vəzifəsini yerinə yetirən iki jurnalist olmaqla 3 nəfər həlak olub, bir neçə şəxs isə ciddi xəsarət alıb.

Bununla bağlı ədliyyə naziri xarici həmkarlarını və beynəlxalq insan hüquqları təsisatlarını müharibənin bitməsindən sonra insan həyatlarının xilası və yeni qurbanların qarşısının alınması, məcbur köçkünlərin öz dədə-baba yurdlarına təhlükəsiz qayıtması, həmçinin Qafqazda sülh və əmin-amanlığın bərqərar olunması naminə səslərini ucaldaraq Ermənistanı mina xəritələrinin verilməsi ilə əlaqədar beynəlxalq öhdəliklərini hökmən yerinə yetirməyə təsir etməyə çağırıb.

Ədliyyə işçiləri iyunun 4-də Kəlbəcər rayonunda Ermənistan tərəfindən quraşdırılmış minaya düşərək həlak olmuş həmvətənlərimizi anaraq xatirələrini bir dəqiqəlik sükutla yad edib, onlara Allahdan rəhmət, yaralılara isə şəfa diləyiblər.

# Azərbaycan və Türkiyə arasında hüquqi əlaqələr inkişaf edir

**İyunun 1-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan nazir dostluq və qardaşlıq münasibətlərimizin ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini, əlaqələrimizin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın müstəsna rolunu qeyd edib. Bildirib ki, dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə qədər dünyada bir-birinə yaxın olan ikinci ölkə yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyə Prezidenti başda olmaqla türk xalqı Azərbaycanın yanında olaraq ilk gündən qardaş ölkənin bütün yüksək rəsmi şəxsləri, o cümlədən ədliyyə naziri Abdulhamit Gül Azərbaycana mənəvi və siyasi dəstəyini ifadə ediblər.

Türkiyənin Baş prokuroru ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edərək Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bağlı təbrik edib, müharibə dövründə azərbaycanlı həmkarları ilə daim təmasda olduğunu və hadisələri yaxından izlədiyini söyləyib, Azərbaycanın zəfərindən çox şad olduğunu qeyd edib. Bildirib ki, Azərbaycanın sevinci bütün türk xalqının sevincidir.





Görüşdə zəngin müqavilə-hüquq bazasına söykənən əlaqələrin inkişafı, iki ölkənin məhkəmə, ədliyyə və prokurorluq orqanlarının ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığı və gələcək perspektivlər vurğulanıb, səfərin qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Eyni zamanda məhkəmə-hüquq islahatları barədə fikir mübadiləsi aparılıb, Azərbaycanda hakimlərin şəffaf seçiminə toxunularaq, onların tədrisində qardaş ölkənin dəstəyi və digər birgə tədbirlərin səmərəsi qeyd edilib. B.Şahin ölkəsində də məhkəmə islahatlarının davam etdiyini bildirərək bu sahədə yaxşı təcrübələrin mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Nazir həmçinin tədbirdə iştirak edən Türkiyənin ölkəmizdəki yeni səfiri Cahit Bağçını

təyinatı münasibətilə təbrik edib, ona uğurlu fəaliyyət arzulayıb.

Qonaqlar nazirlikdə Azərbaycan ədliyyəsinin tarixinə və müasir inkişafına dair yeni eksponatlarla zənginləşdirilmiş muzeylə və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbəyə, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş xüsusi stendlərlə tanış olublar.

# Ermənistanın mina xəritələrini verməsi üçün beynəlxalq ictimaiyyətə çağırış edilib

**Avropa məkanında yerli özünüidarə orqanlarına məsul nüfuzlu qurum olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin 40-cı sessiyası çərçivəsində iyunun 17-də Yerli Özünüidarəetmə üzrə Avropa Xartiyasının tətbiqi ilə bağlı Azərbaycan üzrə monitorinq hesabatının müzakirəsinə dair videokonfrans formatında dinləmə keçirilib.**

Tədbirdə iştirak edən Azərbaycanın ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkəmizdə yerli və regional demokratiyanın vəziyyəti, eləcə də Avropa Xartiyasının icrası ilə bağlı çıxış edib.

Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bələdiyyə institutunun inkişafı, bu sahədə qanunvericilik və institusional islahatlar aparılaraq bələdiyyələrin səlahiyyətlərinin genişləndirilməsi, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması, müstəqilliyinin artırılması, yerli özünüidarəetmə fəaliyyətinin müasir tələblərə uyğun, şəffaf qurulması üzrə həyata keçirilən tədbirlər barədə məlumat verib.







Həmçinin Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodoloji yardımın göstərilməsi, bələdiyyə üzvlərinin və qulluqçularının tədrisi və maarifləndirilməsi sahəsində görülən işlər vurğulanıb, Konqreslə səmərəli əməkdaşlıq qeyd edilib.

Bildirilib ki, Konqresin tövsiyələrinə uyğun olaraq artıq ənənəyə çevrilmiş "Yerli demokratiya həftə"ləri çərçivəsində bələdiyyələrdə "açıq qapı" günləri, əhali ilə təşkil olunan görüşlər yerli özünüidarə ilə bağlı vətəndaşların maarifləndirməsinə xidmət etməklə "vətəndaş-bələdiyyə" əlaqələrini möhkəmləndirir.

Videokonfransda torpaqlarımızın erməni işğalı altında olduğu dövrdə həmin ərazilərdə bələdiyyə institutunun yaradılmasının qeyri-mümkünlüyü və keçmiş məcburi köçkünlərimizin uzun illərdir yerli özünüidarə hüququndan tamamilə məhrum olduğu xüsusilə diqqətə çatdırılıb, ötən il Ermənistanın hərbi təxribatlarına cavab olaraq aparılmış Vətən müharibəsində ölkəmizin qələbə qazanaraq işğala son qoyduğu vurğulanıb.

Müharibənin dinc əhalimiz üçün ağır nəticələri barədə Nazirlik tərəfindən Konqresin ətraflı məlumatlandırıldığı bildirilərək hazırda həmvətənlərimizin öz doğma torpaqlarına qayıdışını təmin etmək məqsədilə azad olmuş ərazilərdə nəhəng bərpa və quruculuq işlərinin aparıldığı qeyd olunub.

Lakin Ermənistan tərəfindən soydaşlarımızın təhlükəsiz qayıdışına əngəl törətmək məqsədilə ərazilərimizin minalandığı və bunun mülki əhali arasında yeni qurbanlara səbəb olduğu, müharibədən sonra 140 nəfərdən çox insanın minalara düşdüyü, onlardan 27-nin, o cümlədən bu yaxınlarda

Azərbaycanın Kəlbəcər rayonunda ikisi jurnalist olmaqla 3 nəfərin həlak olduğu diqqətə çatdırılıb.

Yalnız beynəlxalq ictimaiyyətin çağırışlarından sonra Ermənistanın təkcə Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim etdiyi qeyd olunaraq, insan həyatlarının xilası və yeni qurbanların qarşısının alınması, məcbur köçkünlərin öz dədə-baba yurdlarına təhlükəsiz qayıtması naminə Konqres üzvləri işğaldan azad edilmiş digər ərazilərdə də Ermənistanın quraşdırdığı mina xəritələrini verməsi ilə bağlı beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün səslərini ucaltmağa çağırılıb.

Tədbirdə bu problemin həllindən sonra azad edilmiş ərazilərimizə qayıdacaq vətəndaşlarımızın yerli özünüidarəetmə hüquqlarının təmin edilməsində Konqresin öz dəstəyini əsirgəməyəcəyinə ümidvarlıq ifadə olunub.

Konqres üzvləri tərəfindən ölkəmizdə yerli özünüidarəetmənin inkişafı istiqamətində həyata keçirilən müsbət tədbirlər qeyd olunub, Azərbaycanla dialoqun və konstruktiv əməkdaşlığın aparılmasına hazır olduqları bildirilib, bələdiyyə institutunun təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilib, suallar cavablandırılıb.

# Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı

**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, bəzi bölgələrdə notariat fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqşünaslar üçün elan olunmuş müsabiqə üzrə keçirilmiş test imtahanında uğur qazanmış 28 namizədlə qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə fərdi qaydada müsahibə aparılıb.**

İxtisas Komissiyası tərəfindən müsahibənin nəticələrinə əsasən zəruri ən yüksək bal toplamış aşağıda göstərilən namizədlərin Ədliyyə Akademiyasında icbari təlimə buraxılmaları, o cümlədən notariat fəaliyyəti üzrə təcrübə keçmələri barədə qərar qəbul edilib.

Müsahibənin nəticələrinə görə uğur qazanmış namizədlərin siyahısı:

1. Əliyev Səbuhi Osman oğlu
2. Hacıyev Xalid Oqtay oğlu
3. Hacıyeva Aygün Firudin qızı
4. Həsənov Elçin Heydər oğlu
5. Həsənov Emil Barat oğlu
6. Hüseynov Cəmil Xalid oğlu
7. Mirabov Fuad Akif oğlu
8. Mustafayeva Şəbnəm Əli qızı
9. Nəcəfquliyev Ruslan Maqsud oğlu
10. Novruzova Nurçin Xasay qızı
11. Yusifli Niyazi Qəhrəman oğlu
12. Zeynalov Nadir Cəmil oğlu

Siyahıda adları göstərilən namizədlər iyun ayının 23-də saat 09:00-da Ədliyyə Akademiyasında olmalıdırlar. Ünvan: Bakı şəhəri, Vidadi küçəsi, 158, telefon 493-71-31.

Bildiririk ki, icbari təlimin yekunları üzrə qiymətləndirmədən müvəffəqiyyətlə keçənlərə notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamənin verilməsi məsələsinə baxılacaqdır.

Əlavə məlumatları nazirliyin Qeydiyyat və notariat baş idarəsindən (Bakı şəhəri, Azadlıq prospekti 72), habelə 404-42-28, 404-42-19 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

# Yeni istifadəyə verilmiş Masallı Məhkəmə Kompleksi ictimaiyyətə təqdim olunub

**Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak edib, binada yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına, həmçinin Masallı rayonunda yeni inşa edilmiş müasir Məhkəmə Kompleksi barədə məlumat verilib, binanın virtual təqdimatı olub.**















İstifadəyə hazır olan Masallı Məhkəmə Kompleksi iyunun 4-də ictimaiyyətə təqdim olunub. Bu münasibətlə Ədliyyə Nazirliyinin aidiyyəti rəhbər işçilərinin, Milli Məclisin deputatlarının, Masallı Rayon İcra Hakimiyyətinin rəhbərliyinin, bölgənin hakimlərinin, ədliyyə, prokurorluq, digər hüquq-mühafizə orqanları işçilərinin, vəkillərin, ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə tədbir keçirilib, media-tur təşkil olunub.

Tədbir iştirakçıları əvvəlcə binanın foyesində ümummilli lider Heydər Əliyevin barelyefi qarşısına gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər. Sonra bina ilə tanışlıq olub.

Bildirilib ki, Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində ərsəyə gələn Masallı Məhkəmə Kompleksi dövlətimizin başçısının tapşırığı ilə tikilmiş Masallı "ASAN Həyat" kompleksinin və Olimpiya İdman Kompleksinin yerləşdiyi zonada inşa olunub.

Konseptual baxımdan yeni olan, funksionallığı ilə fərqlənən, dörd məhkəməni əhatə edən kompleks ölkəmizdə inşa olunmuş üçüncü məhkəmə kompleksidir. Bu komplekslər "bir qapı" prinsipi ilə fəaliyyət göstərərək ədalət mühakiməsinin effektiv həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edir.

Ümumi sahəsi 3700 kvadratmetr olan, iki mərtəbədən və zirzəmi qatından ibarət kompleksdə müasir şərait yaradılıb, qabaqcıl İKT-lər, məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan verən elektron məlumat köşkləri, tabloları və məhkəmə rüsumlarının yerində ödənilməsi məqsədilə ASAN ödəniş terminalı quraşdırılıb. Həmçinin əhalinin həssas təbəqəsi olan əlil vətəndaşların rahat hərəkət etmələri üçün binada bütün zəruri şərait mövcuddur.

Digər müasir məhkəmə binalarında olduğu kimi, bina

inzibati və ictimai zonalara bölünür. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. İcra məmurları, dövlət ittihamçıları və vəkillər də ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Məlumat verilib ki, binada yaradılmış 44 günlük Vətən müharibəsində Zəfər salnaməsinə həsr olunan stendlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfər yürüşünü və xalqımızın Böyük Qələbəsini, dövlətimizin başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş doğma torpaqlarımıza müntəzəm səfərlərini və həmin ərazilərin dirçəldilməsi istiqamətində görülən bərpa-quruculuq işlərini əks etdirən fotolar nümayiş etdirilir.

Burada, eyni zamanda, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə ədliyyə və məhkəmə sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.

Diqqətə çatdırılıb ki, kompleksdə rayon məhkəməsi ilə yanaşı, Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılaraq ötən ildən fəaliyyətə başlamış kommersiya və inzibati məhkəmələr, habelə Şirvan Apellyasiya Məhkəməsi tərəfindən bu bölgəyə aid işlərə yerində baxılacaq.

Kompleksdə dörd məhkəmə



zalında proseslərə müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması üçün "Femida" sistemi quraşdırılıb. İnnovasiyalar və digər avadanlıqlar təchiz olunmaqla yaradılmış müasir şərait bölgənin 1 milyon 700 min sakininin əlçatanlığına və onlara keyfiyyətli məhkəmə xidmətlərinin göstərilməsinə yönəlib.

Binada 13 hakimin və bütövlükdə orada çalışacaq 70-dək işçinin fəaliyyəti, videokonfransların, təlimlərin və digər tədbirlərin təşkili üçün hər cür şərait yaradılıb.

Tanışlıqdan sonra məhkəmənin konfrans zalında keçirilən tədbirdə Ədliyyə Nazirliyi Təşkilat-nəzarət baş idarəsinin rəis müavini Sübhi Kazımov çıxış edərək son illər dövlətimizin başçısı tərəfindən müasir çağırışlara uyğun həyata keçirilən məhkəmə-hüquq islahatlarından danışıb.

Bildirib ki, bu sahədə mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə bağlı kompleks qanunvericilik, institusional və praktiki tədbirlər həyata keçirilib, mühüm qanunlar qəbul edilib, yeni ixtisaslaşmış - kommersiya, habelə inzibati məhkəmələr yaradılıb, dövlətimizin başçısının 2021-ci il 3 fevral tarixli Sərəncamı ilə Sumqayıt Ağır Cinayətlər Məhkəməsi təsis edilib.

Həmçinin vahid məhkəmə təcrübəsinin formalaşdırılması və hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi üçün işlək mexanizmlər yaradılıb, hakimlərin sosial müdafiəsi və məhkəmələrin təminatı yaxşılaşdırılıb, innovativ və rəqəmsal texnologiyaların tətbiqi genişləndirilib.

Ötən dövrdə məhkəmə hakimiyyətinin infrastrukturunun onun yüksək statusuna uyğun müasirləşdirilməsi üzrə xeyli işlər görülüb. Bu sahədə Dünya Bankının iştirakı ilə paytaxtda və bölgələrdə 25-ə yaxın məhkəmə üçün konseptual baxımdan yeni, müasir İKT və avadanlıqla təchiz olunmuş bina və komplekslər inşa edilib və onlar "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqla yüksək texnoloji (hi-tech) məhkəmələrə çevriliblər.





Prezident İlham Əliyev Sabunçu, Şəki Məhkəmə komplekslərinin, eləcə də Yasamal, Nərimanov, Binəqədi və Oğuz Rayon məhkəmələri üçün yeni binaların açılışlarında iştirak edib. Bu ərəfədə isə dövlət başçısı tərəfindən paytaxtın Suraxanı Rayon Məhkəməsinin yeni inzibati binası və Masallı Məhkəmə Kompleksi istifadəyə verilib.

Qeyd olunub ki, Azərbaycan Prezidentinin tapşırıqlarına əsasən, məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir. Məhkəmə sistemində kadr islahatları aparılaraq, Ali Məhkəmənin bütün 4 kollegiya sədri, habelə apellyasiya məhkəmələrinin 11 kollegiya sədri, 19 birinci instansiya məhkəməsinin sədrləri vəzifəsinə yeni təyinatlar aparılıb. Ali Məhkəmənin 7 hakimi aşağı işə keçirilib, zəruri hazırlığa və mənəvi keyfiyyətlərə malik 40-dan çox hakim ali və apellyasiya məhkəmələrinə irəli çəkilib. Dövlətimizin başçısının 2021-ci il 24 may tarixli Sərəncamı ilə bütün 5 apellyasiya məhkəməsinin sədrləri dəyişdirilib.

Hazırda 120-dək hakimin fəaliyyəti qiymətləndirilərək 14 nəfərin fəaliyyətində peşəkar çatışmazlıqlar müəyyən olunub, 3 nəfərin isə səlahiyyətlərinə xitam verilib. Ümumiyyətlə isə son bir ildə 20 hakimin səlahiyyətlərinə müxtəlif əsaslarla xitam verilib.

Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı ilə əlavə ayrılmış 200 hakim ştat vahidinin komplektləşdirilməsi məqsədilə davamlı olaraq şəffaf seçim keçirilərək artıq 44 nəfər müxtəlif hakim vəzifələrinə təyin olunub. 300-dək namizəd isə müsabiqənin müxtəlif mərhələsindədirlər. Onların sırasında gənclər üstünlük təşkil edir. Mövcud hakim korpusunda orta yaş həddi 50-dən yuxarı olduğu halda, yeni təyinat alan hakimlərin orta yaşı 35-dir. Həmçinin mövcud hakim korpusunda qadınların sayı 15 faizə qədərdir, yeni hakimlər sırasında isə qadınların sayı 40 faizi ötür.

Sonra yeni məhkəmə bina və kompleksinin açılışına və ədliyyə sahəsində innovasiyalara dair video-çarx nümayiş olunub.

Təqdimat zamanı bildirilib ki, "Elektron məhkəmə" vasitəsilə məhkəmə prosesində video-əlaqə ilə iştirak imkanı yaradılaraq karantin rejimində məhkəmə işlərinə onlayn qaydada baxılması mümkün olub. E-məhkəmənin tətbiqi ilə digər orqanlarla inteqrasiya hesabına sənədlər ani vaxt rejimində əldə edilir. "Mobil məhkəmə" tət-

biqi vasitəsilə isə smartfonla məhkəməyə elektron müraciət etmək, sənədlər və qərarlarla məhkəməyə gəlmədən tanış olmaq mümkündür.

Eyni zamanda, "Elektron icra" sisteminin tətbiqi məhkəmə qərarlarının icrasının səmərəsini artırıb, bu sistem də zəruri sənədləri müxtəlif orqanlardan dərhal onlayn qaydada almağa imkan verib. Hamı üçün əlçatan olan ümumi ödəniş terminalları və elektron ədliyyə köşkü vasitəsilə borcu ödəmək mümkündür ki, bu zaman hətta borca görə ölkəni tərk etmək qadağası dərhal, avtomatik aradan qaldırılır.

Məlumat verilib ki, hazırda istifadəçilərinin sayı 115 minə yaxın "Mobil notariat" da təkmilləşdirilərək məhkəmədə təmsilçilik üçün vəkilə verilən, habelə nəqliyyat vasitələrinə dair etibarnamələrin, eləcə də yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün müvafiq razılıq və digər sənədlərin notariata getmədən, mobil telefonla rəsmiləşdirilməsi mümkündür.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial sahədə uğurlu siyasətinə dəstək olaraq dövlətin pulsuz dərmanla təmin etdiyi kimsəsiz şəxslərə həmin dərmanları əldə etmək üçün müvafiq etibarnamənin elektron qaydada ödənişsiz verilməsi təşkil edilib.

Banklarda notariat xidmətlərinə ehtiyac duyulduqda bu hərəkətlərin dərhal yerində video-əlaqə vasitəsilə rəsmiləşdirilməsi imkanı yaradılıb. Eyni





xidmətlər, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan böyük sosial əhəmiyyətə malik "DOST mərkəzləri"ndə də göstərilir.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, hakimlər, Milli Məclisin deputatları Musa Qasımlı və Anar İsgəndərov, ictimaiyyətin nümayəndələri və digər çıxış edənlər müasir məhkəmə binalarının istifadəyə verilməsinin məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə olmaqla məhkəmələrin fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının, bu sahədə şəffaflığın artırılmasına xidmət etdiyini bildirib, regionların hərtərəfli tərəqqisinə, xüsusilə ədalət mühakiməsinin səmərəliliyinə və məhkəmə sisteminin inkişafına göstərdiyi xüsusi qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam edir.**

Test üsulu ilə və yazılı imtahanlarda müvəffəqiyyət qazanmış 64 nəfər namizədlə Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilib.

İmtahanlar zamanı namizədlərə hüququn müxtəlif sahələrinə dair 5 sual verilib və onların hər biri yarım saat ərzində bu sualları cavablandırıb. Namizədlərə bərabər şərait yaradılması və obyektivliyin təmin edilməsi məqsədilə imtahan sualları hər gün bilavasitə imtahandan əvvəl, imtahan keçirilən auditoriyada hazırlanıb və onlar tərəfindən sərbəst cavablandırılıb.

Suallar namizədlərin bilik səviyyəsinin, fikirlərini səlist ifadə etmək bacarığının, məntiqi nəticələr çıxarmaq qabiliyyətinin, ümumi dünya görüşünün müəyyən olunmasına imkan verib.

COVİD-19 pandemiyası ilə bağlı xüsusi karantin rejiminin tələblərinə əməl olunmaqla keçirilmiş imtahanların nəticəsinə görə 60 və daha çox bal toplamış 41 nəfər tədris kurs-



larına buraxılıb.

Həmin kurslarda namizədlərin hakimlik fəaliyyətinə hazırlanmaları təmin ediləcək, hakimin etik davranışı, korrupsiya ilə mübarizə, insan haqları, beynəlxalq normalar və digər aktual məsələlərə dair mövzular nüfuzlu yerli və beynəlxalq ekspertlərin iştirakı ilə tədris olunacaq, onlar məhkəmələrdə staj keçəcəklər.

# Ədliyyə Nazirliyi tərəfindən Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı "açıq qapı" günü keçirilib





**BMT Baş Assambleyasının qərarına əsasən müəyyən edilmiş 1 İyun - Uşaqların Beynəlxalq Müdafiə Günü ölkəmizdə geniş qeyd edilir.**

Bu münasibətlə Ədliyyə Nazirliyi tərəfindən 4 saylı cəzaçəkmə müəssisəsində qadın məhkumlar üçün uşaqları ilə və Tərbiyə müəssisəndə yeniyetmə məhkumların valideynləri ilə "açıq qapı" günü keçirilib.

Tədbirlərdə nazirliyin və Penitensiar xidmətin məsul işçiləri, Vəkillər Kollegiyasının, "Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin, xeyriyyə təşkilatlarının və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.

Çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə





dövlət uşaq siyasətinin uğurla həyata keçirilməsindən, uşaqların hərtərəfli inkişafına göstərilən yüksək qayğıdan, uşaq hüquqlarının etibarlı təmin olmasına xidmət edən mühüm tədbirlərdən bəhs olunub. Uşaqların firavan və sağlam, yüksək mənəvi-əxlaqi mühitdə layiqli şəxsiyyət kimi yetkinləşməsi, bu sahədə çoxşaxəli təşəbbüslərin reallaşdırılmasında respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və rəhbəri olduğu Heydər Əliyev Fondunun xidmətləri qeyd edilib.

Cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yeniyetmə məhkumların hüquqlarının təminatı, islah prosesinin və asudə vaxtının səmərəli təşkili, xüsusi karantin rejimi şəraitində yeniyetmə məhkumların valideynləri, həmçinin qadın məhkumların uşaqları ilə ünsiyyət qurmaları üçün videokonfrans



formatında görüşlərin, habelə məhkumların sosial adaptasiyası məqsədilə onların bilik və bacarıqlarının artırılması, peşə hazırlığı ilə bağlı vətəndaş cəmiyyəti institutları ilə birgə proqramların, təlim-tədris kurslarının keçirilməsi vurğulanıb.

Sonra Uşaqların Beynəlxalq Müdafiə Gününə həsr olunmuş bayram tədbirləri keçirilib. Tədbir iştirakçıları əlamətdar bayram münasibətilə uşaqlara təbriklərini çatdırıb, onlara hədiyyələr təqdim ediblər. Musiqili-əyləncəli konsert proqramı ilə davam edən tədbirlər uşaqlar tərəfindən böyük maraq və sevinc hissi ilə qarşılanıb. Daim dövlət qayğısı ilə əhatə olunan uşaqlar üçün Ədliyyə Nazirliyi tərəfindən belə tədbirlərin təşkilinə görə minnətdarlıq ifadə edilib.

# Ədliyyə Akademiyasında

## "Qadınların ədalət mühakiməsinə çatımlılığı" üzrə HELP kursu

**Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə həyata keçirilən "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II" proqramının "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində "Qadınların ədalət mühakiməsinə çatımlılığı" üzrə HELP kursunun distant formada açılışı olub.**

Avropa Şurası ekspertlərinin, Şərq Tərəfdaşlığı ölkələrinin təmsilçilərinin, həmçinin milli qruplar üzrə distant

HELP kursuna cəlb olunan hakimlərin, prokurorluq orqanları əməkdaşlarının və ŞT ölkələri Ədliyyə akademiyalarının və QHT nümayəndələrinin iştirak etdiyi tədbirdə Avropa Şurası Gender bərabərliyi şöbəsinin, PGG Layihəsinin, Avropa İttifaqı DG NEAR Bölməsinin rəhbər şəxsləri, Birləşmiş Krallığın Queen Mary Universitetinin professoru çıxış edərək Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı barədə məlumat verib, Proqramın ŞT ölkələrində icrasının əhəmiyyətini qeyd ediblər.

Sonra Avropa Şurası HELP Proqramının və "Qadınların ədalət mühakiməsinə çatımlılığı" HELP kursunun təqdimatı ilə çıxışlar edilib, HELP platformasının tədris resursları, kursun məqsədi, mahiyyəti, bu sahədə beynəlxalq və milli təcrübələr, modullar üzrə tapşırıqlar və nəticələrin qiymətləndirilməsi barədə məlumat verilib.

Tədbirdə Ukrayna Milli Hakimlər Məktəbi tərəfindən bu sahədə həyata keçirilən kurslardan bəhs olunub, sonra Avropa Şurası tərəfindən seçilmiş milli tyutorlar tərəfindən kursun Şərq Tərəfdaşlığı ölkələrinin milli qrupları üçün tədrisin təşkilinə dair "dəyirmi masa"da müzakirələr aparılıb. Milli tyutorlar iştirakçılara HELP kursunun təşviqi, milli institutların və özlərinin "Qadınların ədalət mühakiməsinə çatımlılığı" ilə bağlı təcrübələri barədə məlumat veriblər.



Milli sessiyada çıxış edən Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov HELP proqramının təşviqi üzrə akademiya tərəfindən görülən işlər barədə məlumat verib, HELP platformasında müxtəlif dillərdə yerləşdirilmiş "Qadınların ədalət mühakiməsinə çatımlılığı" kursunun Azərbaycan dilinə tam tərcümə edildiyini, bu mövzunun müxtəlif qruplar, xüsusilə də hakimlər üçün tədris edildiyini diqqətə çatdırıb.

Daha sonra HELP kursuna moderatorluq edəcək milli tyutor Ədliyyə Akademiyasının əməkdaşı tərəfindən kursa cəlb olunan hakimlərə, prokurorlara və akademiyanın əməkdaşlarına HELP kursunun strukturu barədə məlumat verilib, fərdi və tyutorluq kurslarının fərqi, HELP platformasında müxtəlif dillərdə yerləşdirilmiş "Qadınların ədalət mühakiməsinə çatımlılığı" fərdi kursunun təqdimatını edib, müzakirələr aparılıb.

Tədbirdə 20-ə yaxın hakim, prokurorluq orqanları və Ədliyyə Akademiyasının əməkdaşları dinləyici qismində iştirak ediblər.

## Kibercinayətkarlığa dair təlimlər

**Avropa Şurasının Kibercinayətkarlıq üzrə Proqram ofisi (C-PROC) və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakimlər, prokurorlar və ədliyyə işçiləri üçün davamlı təlimlər keçirilir.**

İlkin olaraq may ayında hakimlər və ədliyyə işçiləri üçün "Kibercinayətlər və elektron dəlillər" mövzusunda 4 günlük təlim təşkil edilib.

30-dək ədliyyə işçisi və hakimlərin qatıldığı təlimdə Avropa Şurasının ekspertləri kibercinayətkarlıqla əlaqəli əsas mövzu və anlayışlar, elektron dəlillər, bu sahədə beynəlxalq əməkdaşlığa dair məsələlər və Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasının müddəaları barədə məlumat veriblər. Həmçinin kibercinayətlərin istintaqı və kibercinayətkarlıqla bağlı elektron dəlillərin təhlilində tələb olunan əsas bacarıq və biliklərin inkişaf etdirilməsi məqsədilə təlim zamanı bir sıra kazuslar da müzakirə edilib.

Tədbirin davamı olaraq 15-dək hakim, prokuror və ədliyyə işçisinin iştirakı ilə "Kibercinayətkarlıq haqqında qanun - milli tətbiq və elektron sübutların toplanması və mümkünlüyü" mözusunda distant formada növbəti təlim keçirilib.

Təlimdə xarici ölkələrin təcrübəsi, o cümlədən kiber cinayət qanunvericiliyi, Filippin kibercinayət mənzərəsi, rəqəmsal məhkəməyə giriş - elektron dəlillərin toplanması və saxlanması mövzusunda əsas bacarıq və biliklərin inkişaf etdirilməsi məqsədilə hərtərəfli çıxışlar edilib.

"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında"

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 12-ci və 13-cü bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2632 nömrəli Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

**Maddə 1. Şuşa Şəhəri Dövlət Qoruğu**

1.1. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılır.

1.2. Şuşa Şəhəri Dövlət Qoruğu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə edilir.

**Maddə 2. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisi**

2.1. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisini Şuşa şəhərinin inzibati sərhədləri daxilində yerləşən torpaq sahələri təşkil edir.

2.2. Şuşa şəhərinin inzibati sərhədlərinə bitişik yerləşən və onunla təbii-landşaft, sosial, tarixi, mədəni və ya təsərrüfat bağlılığı olan və ya Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizəsi, qorunması və ya inkişafı üçün əhəmiyyətə malik olan ərazilərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mühafizə zonasının sərhədləri müəyyən edilir.

**Maddə 3. Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətləri**

3.1. Şuşa şəhərində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

3.1.1. Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək;

3.1.2. Şuşa şəhərində yerləşən tarix və mədəniyyət abidələrinin (bundan sonra - abidələr) həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək;

3.1.3. Şuşa şəhərində effektiv dövlət idarəetməsinin təşkili və tətbiqini təmin etmək, şəhər həyatının bütün sahələrində innovativ həllərdən istifadəni dəstəkləmək;

3.1.4. Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq;

3.1.5. Şuşa şəhərinin ərazisində sahibkarlıq fəaliyyətinin canlanmasını və inkişafını təmin etmək;

3.1.6. Şuşa şəhərinin ərazisində elmi-tədqiqat, ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin inkişaf və nümayiş etdirilməsi üçün tədbirlər görmək;

3.1.7. Şuşa şəhərində mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərini təşviq etmək;

3.1.8. Şuşa şəhərinin beynəlxalq mədəni əlaqələrinin inkişafını təmin etmək, habelə şəhərin dünya tarixi-mədəni irsinin incilərindən biri kimi nüfuzunu möhkəmləndirmək.

**Maddə 4. Şuşa şəhərinin ərazisində və onun mühafizə zonasında hüquqi tənzimləmə**

4.1. Şuşa şəhərinin ərazisində bu Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilən hüquqi tənzimləmə tətbiq edilir.

4.2. Şuşa şəhərinin ərazisində hüquqi tənzimləmənin sahələri aşağıdakılardır:

4.2.1. abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliği;

4.2.2. ətraf mühitin mühafizəsi;

4.2.3. tikinti, memarlıq və şəhərsalma fəaliyyəti;

4.2.4. sahibkarlıq fəaliyyəti;

4.2.5. turizm (rekreasiya) fəaliyyəti, habelə yerli, ölkə və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi;

4.2.6. reklam fəaliyyəti;

4.2.7. nəqliyyatın təşkili, o cümlədən Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisinə giriş-çıxışın tənzimlənməsi;

4.2.8. mənzil fondunun idarə edilməsi;

4.2.9. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət idarəetməsinin təşkili və Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi.

4.3. Bu Qanunun 4.2-ci maddəsində nəzərdə tutulan sahələr üzrə Şuşa şəhərində tənzimləmə ilə bağlı əlavə tələblər müəyyən edilə bilər.

4.4. Şuşa şəhərinin mühafizə zonasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mühafizə rejimi tətbiq edilir.

**Maddə 5. Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, istifadəsi və təbliği**

5.1. Şuşa şəhərinin ərazisində yerləşən abidələrin dövlət mühafizəsinin və qorunmasının təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təmin edilir.

5.2. Şuşa şəhərinin ərazisində abidələrin tarixi-memarlıq və bədii-estetik görkəminin dəyişdirilməsi, abidələrin uçurulması və ya onlar üçün təhlükə yarada biləcək hər hansı fəaliyyətin həyata keçirilməsi qadağandır.

5.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlər verə bilər. Yazılı göstərişin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

5.4. Yazılı göstərişə əməl edilmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) göstərişdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin edir və çəkilmiş xərcləri, habelə dəymiş zərərin əvəzini göstərişi icra etməmiş şəxslərdən tələb edir.

5.5. Şuşa şəhərinin ərazisində abidələrin öyrənilməsi və arxeoloji qazıntıların aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə həyata keçirilir. Belə razılıq verilərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınır.

5.6. Şuşa şəhərinin ərazisində arxeoloji qazıntılar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nəzarəti ilə aparılır. Arxeoloji qazıntılar abidələrə zərər yetirilmədən aparılmalıdır. Arxeoloji qazıntılar zamanı aşkar edilən abidə, əşya və ya başqa tapıntının koordinatları və vəziyyəti qazıntı işlərinin təşkilatçısı tərəfindən qeyd edilməli, fotosu və ya videosu çəkilməlidir. Bu işlərin gedişində aşkar edilən arxeoloji materiallar dövlət mülkiyyəti hesab olunur.

5.7. Dünya əhəmiyyətli abidələr istisna olmaqla, dövlət mülkiyyətində olan digər abidələr və ya onların hissələri Şuşa şəhərinin Baş planına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən, xüsusi mülkiyyətdə olan abidələr və ya onların hissələri isə elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün onların istifadə məqsədlərini və xüsusiyyətlərini müəyyənləşdirən istifadə proqramı, uyğunlaşdırma və bərpa layihələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırıldıqdan sonra icarəyə (istifadəyə) verilə bilər. Mülkiyyətində abidələr olan hüquqi və fiziki şəxslər abidələri və ya onların hissələrini digər məqsədlər üçün icarəyə (istifadəyə) verdikdə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

5.8. Şuşa şəhərinin ərazisində yerləşən abidələri və ya onların ayrı-ayrı hissələrini icarəyə (istifadəyə) götürən fiziki və ya hüquqi şəxslər onların həcm kompozisiyasını, xarici görünüşünü, konstruktiv elementlərini dəyişdirməməli, istismar zamanı abidələrə zərər vurmamalı və təsərrüfat işləri zamanı arxeoloji abidələrdə mədəni təbəqənin korlanmasına yol verməməlidirlər.

5.9. Şuşa şəhərinin ərazisində "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət

mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə yol verilmir. Yerli əhəmiyyətli abidələrin özəlləşdirilməsinə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı əsasında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yol verilir.

5.10. Xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir.

5.11. Dövlət mülkiyyətində olan abidələrin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında həyata keçirilir. Dövlət mülkiyyətində olmayan abidələr ilə əlaqədar bu işlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə mülkiyyətçi (icarəçi və ya istifadəçi) tərəfindən və onun hesabına aparılır.

5.12. Şuşa şəhərinin ərazisində abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında abidələrin qorunmasına dair forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən mühafizə müqavilələri bağlanılır. Abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri həmin abidələrin salamatlığına görə qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

5.13. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülkiyyətində, istifadəsində və ya icarəsində abidələrin olduğu fiziki və ya hüquqi şəxslər tərəfindən abidələrin qorunması və ya mühafizə müqavilələrinin şərtlərinə əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə abidələrdə monitorinq keçirmək hüququna malikdir. Monitorinqin keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

5.14. Şuşa şəhərinin ərazisində abidələr ilə bağlı bu Qanunla tənzimlənməyən məsələlər "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 6. Şuşa şəhərinin ərazisində ətraf mühitin mühafizəsi**

6.1. Şuşa şəhərinin ərazisində ətraf mühitin mühafizəsi "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

6.2. Şuşa şəhəri ərazisində ekoloji təmiz enerji təchizatına, resursların davamlı istifadəsinə, emal və təkrar emal sahələrinin inkişafına, atmosfer və ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsinə, su və torpaq resurslarından səmərəli istifadəyə, həmçinin bu sahədə bütün proseslərin informasiya sistemləri vasitəsilə idarə edilməsinə üstünlük verilir.

**Maddə 7. Şuşa şəhərinin ərazisində tikinti, memarlıq və şəhərsalma fəaliyyəti**

7.1. Şuşa şəhərinin ərazi planlaşdırılması sənədini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən, habelə özündə müfəssəl həlləri ehtiva edən şəhərin Baş planı təşkil edir.

7.2. Şuşa şəhərinin ərazisində həyata keçirilən bütün tikinti-quraşdırma, abadlıq, təmir, bərpa, konservasiya, rekonstruksiya və regenerasiya işləri şəhərin Baş planına, ərazinin memarlıq üslubuna uyğun olmalıdır.

7.3. Şuşa şəhərinin ərazisinin zonalaşdırılması Baş planda müəyyənləşdirilir.

7.4. Tarixi və arxeoloji əhəmiyyət kəsb edən ərazilərdə tikinti, bərpa, təmir və təsərrüfat işləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin iştirakı ilə aparılır və bu zaman həmin ərazi əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdən keçirilir və abidələrin ilkin tədqiqi təmin edilir.

7.5. Şuşa şəhərinin ərazisində inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)

tərəfindən qəbul edilir.

7.6. Şuşa şəhərinin ərazisində tikinti niyyətinin həyata keçirilməsi ilə bağlı tikintiyə icazə və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri müvafiq ərazinin planlaşdırılması tələblərinə uyğunluğunun müəyyən edilməsi, belə icazələrin verilməsindən və uyğunluğun müəyyən edilməsindən, habelə tikinti fəaliyyətindən irəli gələn digər məsələlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi ilə tənzimlənir.

**Maddə 8. Şuşa şəhərinin ərazisində sahibkarlıq fəaliyyəti**

8.1. Şuşa şəhərinin ərazisində onun inkişafına yönəlmiş infrastrukturun, investisiya qoyuluşu və investorların fəaliyyəti üçün şəraitin yaradılması təmin edilir.

8.2. Şuşa şəhərinin ərazisində onun tarixi, mədəni, elmi, estetik, rekreasiya dəyərlərinə xələl gətirə bilən, abidələrə və ya təbii landşafta, ekoloji mühitə təhlükə yarada bilən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq qadağandır.

8.3. Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 9. Şuşa şəhərinin ərazisində turizm (rekreasiya) fəaliyyəti, habelə yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi**

9.1. Şuşa şəhərinin ərazisində abidələrə xələl gətirmədən turizm (rekreasiya) infrastrukturunun yaradılması təmin edilir, habelə maddi və qeyri-maddi mədəni irsin qorunmasına və təbliğinə dair məlumat mərkəzləri təşkil edilir.

9.2. Şuşa şəhərinin ərazisində yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının, konsert və musiqi festivallarının, sərgi və ekskursiyaların keçirilməsi, sənədli və bədii filmlərin, televiziya verilişlərinin və reklam çarxlarının çəkilişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə əvvəlcədən razılaşdırılmalıdır.

**Maddə 10. Şuşa şəhərinin ərazisində reklam fəaliyyəti**

10.1. Şuşa şəhərinin ərazisində siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş abidələrin üzərində və onların mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağandır.

10.2. Şuşa şəhərinin ərazisində Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi təşviqinə dəstək olan reklamların yerləşdirilməsinə üstünlük verilir.

10.3. Şuşa şəhərinin ərazisində şəhərin tarixi-mədəni irsinə, mədəniyyətinə və şöhrətinə xələl gətirə bilən reklam yerləşdirilməsi qadağandır.

10.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Şuşa şəhərinin ərazisində açıq məkanda reklam fəaliyyətinə nəzarəti həyata keçirir, o cümlədən reklam yerləşdirilməsinə icazə verir, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklər edilməsinə, istismarına icazə verir, tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi ilə əlaqədar müvafiq tədbirlər görür, habelə şəhərin mühafizə zonasında reklam yerləşdirilməsinə razılıq verir.

10.5. Şuşa şəhərinin ərazisində reklam fəaliyyəti ilə bağlı bu Qanunda tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi və "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 11. Şuşa şəhərinin ərazisində nəqliyyatın təşkili**

11.1. Şuşa şəhərinin ərazisində nəqliyyat infrastrukturunun, o cümlədən şəhərin hissələrinə giriş-çıxışın təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

11.2. Şuşa şəhərinin ərazisində ekoloji təmiz nəqliyyat vasitələrinə üstünlük verilir və onlardan istifadə təşviq edilir.

11.3. Şuşa şəhərinin ərazisində mövcud olan yollarda və ya şəhərin mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərə-

findən həmin yollarda nəqliyyat vasitələrindən istifadəyə məhdudiyyət tətbiq edilə və ya bu cür istifadə qadağan edilə bilər.

**Maddə 12. Şuşa şəhərinin ərazisində mənzil fondunun idarə edilməsi**

12.1. Şuşa şəhərinin ərazisində dövlət mənzil fondu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarə edilir.

12.2. Şuşa şəhərinin ərazisində mənzil hüququnun həyata keçirilməsi, habelə əhalinin əmlak hüquqları ilə bağlı bu Qanunda tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Mənzil Məcəlləsi və digər qanunları ilə tənzimlənir.

**Maddə 13. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət idarəetməsinin təşkili və Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi**

13.1. Şuşa Şəhəri Dövlət Qoruğunun ərazisində dövlət orqanları (qurumları) tərəfindən fiziki və hüquqi şəxslərə göstərilən xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) və ya elektron qaydada təşkil edilir.

13.2. Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi dövlət büdcəsindən ayrılan vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

13.3. Şuşa Şəhəri Dövlət Qoruğunun qorunması, bərpası, yenidən qurulması, öyrənilməsi və inkişafı sahəsində işlərə dəstək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən xüsusi fond yaradılır.

13.4. Fondun vəsaiti fiziki və hüquqi şəxslərin yardımları (ianələri), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır.

13.5. Fondun vəsaitlərinin formalaşması və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 14. Şuşa şəhərinin ərazisində vergilər və digər məcburi ödənişlər**

Şuşa şəhərinin ərazisində tətbiq edilən vergilər və digər məcburi ödənişlər Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Azərbaycan Respublikasının digər qanunlarına uyğun olaraq müəyyən edilir.

**Maddə 15. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 may 2021-ci il*
*N 338-VIQ*

### "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci, 2.2-ci, 4.4-cü, 5.1-ci maddələrində, 5.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 5.4-cü maddəsində, 5.5-ci maddəsinin

birinci və ikinci cümlələrində, 5.6-cı maddəsinin birinci cümləsində, 5.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 5.9-cu maddəsinin ikinci cümləsində, 5.11-ci maddəsinin birinci və ikinci cümlələrində, 5.12-ci maddəsinin birinci (hər iki halda) cümləsində, 5.13-cü maddəsinin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.4-cü (hər iki halda) maddələrində, 7.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 8.3-cü, 9.2-ci, 10.1-ci, 10.4-cü, 11.1-ci, 11.3-cü, 12.1-ci, 13.1-ci, 13.3-cü və 13.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.3-cü və 13.5-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 2.2-ci, 4.4-cü maddələrində, 5.3-cü maddəsinin ikinci cümləsində, 5.12-ci maddəsinin birinci cümləsində (ikinci halda), 5.13-cü maddəsinin ikinci cümləsində, 7.1-ci, 8.3-cü və 10.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.2-ci, 5.1-ci maddələrində, 5.3-cü maddəsinin birinci cümləsində, 5.4-cü maddəsində, 5.5-ci maddəsinin birinci cümləsində, 5.6-cı maddəsinin birinci cümləsində, 5.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 5.9-cu maddəsinin ikinci cümləsində, 5.11-ci maddəsinin birinci və ikinci cümlələrində, 5.12-ci maddəsinin birinci cümləsində (birinci halda), 5.13-cü maddəsinin birinci cümləsində, 7.4-cü (hər iki halda) maddəsində, 7.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 9.2-ci, 10.4-cü, 11.1-ci, 11.3-cü və 12.1-ci maddələrində "orqan (qurum)" dedikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5.5-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. həmin Qanunun 2.2-ci maddəsinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının sərhədlərini müəyyənləşdirib təsdiq etsin;

2.1.3. həmin Qanunun 4.4-cü maddəsinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının mühafizə rejimini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.1.4. həmin Qanunun 5.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmununu, habelə təhlükənin aradan qaldırılması tədbirlərini, onların həyata keçirilməsi qaydasını və müddətini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.5. həmin Qanunun 5.12-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində abidələrin qorunmasına dair mühafizə müqavilələrinin formasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.6. həmin Qanunun 5.13-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində abidələrin monitorinqinin keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.7. həmin Qanunun 8.3-cü maddəsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.8. həmin Qanunun 10.1-ci maddəsinə uyğun olaraq, Şuşa şəhərinin ərazisində üzərində və mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.9. həmin Qanunun 13.2-ci və 14-cü maddələrinə uyğun olaraq, Şuşa Şəhəri Dövlət Qoruğunun maliyyələşdirilməsi mənbələrinə dair təkliflərini

hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 iyun 2021-ci il*
*N 1374*

### Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsini nəzərə alaraq **qərara alıram:**

1. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs yaradılsın.

2. "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (bundan sonra - İdarə) nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

4. Müəyyən edilsin ki:

4.1. İdarə tərəfindən dövlət əmlakının icarəyə verilməsindən alınan haqqın 50 (əlli) faizi dövlət büdcəsinə köçürülür, qalan hissəsi İdarənin sərəncamında qalır;

4.2. İdarənin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

4.3. İdarənin fəaliyyətinə rəhbərliyi həyata keçirmək üçün 3 (üç) üzvdən - sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti yaradılır.

5. İdarənin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.1.1. İdarənin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2. İdarənin idarəetmə orqanlarının yaradılması;

5.1.3. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təqdimatı əsasında İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5.1.4. İdarənin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

5.1.5. İdarənin ləğvi və yenidən təşkili;

5.1.6. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün İdarənin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

5.2. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinə:

5.2.1. İdarənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

5.2.2. İdarənin inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

5.3. İdarəyə:

5.3.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, İdarənin strukturu-

nun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi;

5.3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, İdarə Heyəti sədrinin müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. İdarənin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

6.5. Şuşa şəhərinin ərazisində yerləşən dövlət mülkiyyətində olan abidələrin, tikililərin (o cümlədən dövlət mənzil fonduna daxil olan tikililərin), yaşayış və qeyri-yaşayış sahələrinin, habelə şəhər avtomobil yollarının, şəhər mərkəzinin məhəllədaxili yollarının, küçələrin, keçidlərin, yol qurğularının və digər nəqliyyat infrastrukturunun üç ay müddətində İdarənin balansına verilməsini təmin etsin;

6.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi İdarənin fəaliyyətinə nəzarəti həyata keçirsin.

8. İdarə onun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

9.1. bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin;

9.2. İdarənin fəaliyyətinin təşkili və təmini üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

9.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 iyun 2021-ci il*
*N 1375*

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin NİZAMNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**1. Ümumi müddəalar**

1.1. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi (bundan sonra - İdarə) Şuşa Şəhəri Dövlət Qoruğunun idarə edilməsini həyata keçirən, habelə Şuşa şəhərinin ərazisində yerləşən abidələrin bərpasının, qorunmasının, öyrənilməsinin, istifadəsinin və təbliğinin təmin edilməsi sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, sərəncamlarını,

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. İdarə bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. İdarənin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. İdarənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. İdarə məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. İdarə Şuşa şəhərində yerləşir.

2. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Şuşa şəhərinin ərazisində (bundan sonra - müvafiq ərazidə) yerləşən abidələrin (bundan sonra - abidələr) həcm-planlaşdırma quruluşunun qorunmasını və toxunulmazlığını, habelə bərpasını, öyrənilməsini, məqsədyönlü istifadəsini təmin etmək;

2.1.2. Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək;

2.1.3. müvafiq ərazidə mədəniyyət fəaliyyətini və mədəniyyət xidmətlərini təşviq etmək;

2.1.4. Şuşa şəhərinin tarixi, mədəni, turizm və istirahət (rekreasiya) potensialından tam yararlanmaq üçün əlverişli şərait yaratmaq.

3. İdarənin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, müvafiq ərazidə İdarənin vəzifələri aşağıdakılardır:

3.1.1. abidələrin dövlət mühafizəsini və qorunmasını təşkil etmək;

3.1.2. abidələrin funksional təyinatına uyğun istifadə edilməsini, habelə tarixi-memarlıq və bədii-estetik görünüşünün toxunulmazlığını və uzunömürlülüyünü təmin etmək;

3.1.3. balansındakı dövlət mülkiyyətində olan abidələrin və tikililərin (o cümlədən dövlət mənzil fonduna daxil olan tikililərin), yaşayış və qeyri-yaşayış sahələrinin, habelə şəhər avtomobil yollarının, şəhər mərkəzinin məhəllədaxili yollarının, küçələrin, keçidlərin, yol qurğularının və digər nəqliyyat infrastrukturunun təyinatı üzrə səmərəli istifadəsini təmin etmək;

3.1.4. abidələrin mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə abidələrin qorunmasına dair mühafizə müqavilələri bağlamaq;

3.1.5. konservasiya mühafizə dərəcəsi olan daşınmaz mədəni sərvətlərdən məhdud dairədə istifadə olunmasına nəzarət etmək;

3.1.6. abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə verilmiş yazılı göstərişə əməl edilmədikdə, göstərişdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək və çəkilmiş xərcləri, habelə dəymiş zərərin əvəzini göstərişi icra etməmiş şəxslərdən tələb etmək;

3.1.7. abidələrin öyrənilməsi və arxeoloji qazıntılar aparılması üçün razılıq vermək;

3.1.8. arxeoloji qazıntılar aparılmasına nəzarət etmək;

3.1.9. xüsusi mülkiyyətdə olan abidələrin və ya onların hissələrinin elmi, mədəni, dini, xidmət və turizm məqsədləri ilə icarəyə (istifadəyə) verilməsi üçün onların istifadə məqsədlərini və xüsusiyyətlərini müəyyənləşdirən istifadə proqramına, uyğunlaşdırma və bərpa layihələrinə razılıq vermək;

3.1.10. yerli əhəmiyyətli abidələrin özəlləşdirilməsinə razılıq vermək;

3.1.11. dövlət mülkiyyətində olmayan abidələrin konservasiyasına, təmirinə, bərpasına, rekonstruksiyasına və regenerasiyasına razılıq vermək;

3.1.12. tarixi və arxeoloji əhəmiyyət kəsb edən ərazilərdə tikinti, bərpa, təmir

və təsərrüfat işlərinin aparılması zamanı ərazidə İdarənin nümayəndəsinin iştirakını təmin etmək və bu zaman həmin ərazini əvvəlcədən nəzərdən keçirmək və abidələrin ilkin tədqiqini təmin etmək;

3.1.13. inşaat, bərpa, təmir, təmizlik, yaşıllaşdırma, abadlaşdırma, təsərrüfat və ya hər hansı başqa işlər aparılarkən arxeoloji abidə aşkar edildikdə dayandırılan işlərin davam etdirilməsi barədə qərar vermək;

3.1.14. aşkar edilmiş abidələrin siyahıya və dövlət qeydiyyatına alınmasını, pasportlaşdırılmasını həyata keçirmək və qorunması üçün tədbirlər görmək, onların əhəmiyyət dərəcəsi ilə bağlı və qorunma rejiminə dair təkliflər vermək;

3.1.15. abidələrin və tikililərin inventarlaşmasını aparmaq, texniki pasportlaşmanı həyata keçirmək;

3.1.16. tikintisinə icazə tələb edilən tikinti obyektlərinin layihələrinə abidələrin qorunması, istifadəsi, habelə tarixi-memarlıq və bədii-estetik görünüşünün toxunulmazlığı baxımından rəy vermək;

3.1.17. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, açıq məkanda reklam fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən reklam yerləşdirilməsinə icazə vermək, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklər edilməsinə, istismarına icazə vermək, habelə tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi qaydasına uyğun olaraq müvafiq tədbirlər görmək;

3.1.18. Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasında reklam yerləşdirilməsinə razılıq vermək;

3.1.19. abidələrə xələl gətirmədən turizm (rekreasiya) infrastrukturunun yaradılmasının təmin edilməsi üçün tədbirlər görmək, habelə maddi və qeyri-maddi mədəni irsin qorunmasına və təbliğinə dair məlumat mərkəzləri təşkil etmək;

3.1.20. yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının, konsert və musiqi festivallarının, sərgi və ekskursiyaların keçirilməsinə, sənədli və bədii filmlərin, televiziya verilişlərinin və reklam çarxlarının çəkilişinə razılıq vermək;

3.1.21. nəqliyyat infrastrukturunun, o cümlədən şəhərin hissələrinə giriş-çıxışın təşkilini həyata keçirmək;

3.1.22. mövcud yollarda və ya şəhərin mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, həmin yollarda nəqliyyat vasitələrindən istifadəyə məhdudiyyət tətbiq etmək və ya bu cür istifadəni qadağan etmək;

3.1.23. Şuşa şəhərinin beynəlxalq mədəni əlaqələrinin inkişafı, habelə şəhərin dünya tarixi-mədəni irsinin incilərindən biri kimi nüfuzunun möhkəmləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.24. müvafiq ərazidə sahibkarlıq fəaliyyətinin canlanmasının və inkişafının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.25. elmi-tədqiqat, ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin inkişaf və nümayiş etdirilməsi üçün tədbirlər görmək;

3.1.26. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və İdarənin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.27. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.28. müvafiq sahədə normativ hüquqi aktların və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.29. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.30. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.31. İdarənin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə

"Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.32. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, İdarə əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.33. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.34. İdarəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.35. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.36. İdarənin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.37. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.38. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.39. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün müvafiq ərazidə İdarənin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə yazılı göstərişlər vermək;

3.2.3. dövlət mülkiyyətində olan abidələr (dünya əhəmiyyətli abidələr istisna olmaqla) və ya onların hissələrini Şuşa şəhərinin Baş planına uyğun olaraq icarəyə (istifadəyə) vermək;

3.2.4. dövlət mülkiyyətində olan abidələrin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası barəsində qərar vermək;

3.2.5. mülkiyyətində, istifadəsində və ya icarəsində abidələrin olduğu fiziki və ya hüquqi şəxslər tərəfindən abidələrin qorunması və ya mühafizə müqavilələrinin şərtlərinə əməl edilməsi vəziyyətini yoxlamaq məqsədilə abidələrdə monitorinq keçirmək;

3.2.6. uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində turizm infrastrukturu obyektləri qurmaq və İdarənin ehtiyaclarının ödənilməsi məqsədilə yeni obyektlər layihələndirmək və inşa etmək;

3.2.7. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.8. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.9. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müvafiq xidmətləri göstərdiyinə (hüquqi hərəkətləri həyata keçirdiyinə) görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutmaq;

3.2.10. tutduğu dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən hissəsini əldə etmək;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar yaratmaq;

3.2.12. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.13. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.14. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.15. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.16. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.17. işçilərinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil etmək və İdarənin fəaliyyət istiqamətlərinə uyğun təlim və inkişaf üzrə ödənişli kurs xidmətləri göstərmək;

3.2.18. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.19. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.20. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

4. İdarənin idarə olunması

4.1. İdarə öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. İdarənin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. İdarə Heyəti İdarəyə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi 3 (üç) üzvdən - İdarə Heyətinin sədrindən və onun 2 (iki) müavinindən ibarətdir. İdarə Heyətinin sədrini Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. İdarə Heyəti sədrinin müavinlərini İdarə Heyətinin sədri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla vəzifəyə təyin və vəzifədən azad edir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinə təkliflər vermək və sənədlər (o cümlədən İdarənin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. İdarənin strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.3. İdarənin fəaliyyətinə nəzarət etmək;

4.5.4. İdarənin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikası Prezidentinin razılığı ilə təsdiq etmək, o cümlədən İdarənin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.5.5. Azərbaycan Respublikası Prezidentinin razılığı ilə İdarənin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin İdarənin nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.6. İdarənin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.7. İdarənin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.8. İdarənin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. İdarənin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin razılığı ilə İdarənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.12. aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.13. İdarənin fəaliyyətini təşkil etmək;

4.5.14. İdarənin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. bu Nizamnamənin 3.1.34-cü yarımbəndində nəzər-

də tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.28-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı bir dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. İdarənin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. İdarənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. İdarənin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.7. özünün və İdarənin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində İdarənin struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.10.9. İdarənin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.10. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, İdarənin, o cümlədən onun nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.11. İdarənin əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində İdarənin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. İdarənin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.14. İdarənin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. İdarədə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. İdarədə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin

iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

5. İdarənin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. İdarənin nizamnamə fondunun məbləği 1 000 000 (bir milyon) manatdır.

5.2. İdarənin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. İdarə öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir, balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. İdarə qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra İdarənin, onun nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. İdarənin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. İdarə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyinə (hüquqi hərəkətləri həyata keçirdiyinə) görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutur.

5.7. İdarənin tutduğu dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən hissəsi İdarənin fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə onun hesabına köçürülür.

5.8. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-3-cü maddəsinə müvafiq olaraq İdarənin açıq məkanda reklam yayımına görə tutduğu haqqın məbləği dövlət tərəfindən tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

6. İdarənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. İdarənin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. İdarənin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

7. İdarədə uçot və hesabat

7.1. İdarə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. İdarə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. İdarə nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. İdarə öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

8. İdarənin ləğvi və yenidən təşkili

İdarənin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

"Azərbaycan dilinin orfoepiya normaları"nın təsdiq edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1 "Azərbaycan dilinin orfoepiya normaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

*Bakı şəhəri, 18 iyun 2021-ci il*
*N 175*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Azərbaycan dilinin orfoepiya normaları

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan dilinin orfoepiya normaları "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının 2002-ci il 30 sentyabr tarixli 365-IIQ nömrəli Qanununun 13.1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və müasir Azərbaycan ədəbi dilində işlənən söz və şəkilçilərin, eləcə də ixtisarların düzgün tələffüzü qaydalarını müəyyən edir.

1.2. Müasir Azərbaycan şifahi ədəbi dilində tələffüz qaydaları lüğəvi, qrammatik və qrafik şərait prinsiplərinə görə müəyyən edilir və fonetik prinsip əsas götürülür. Bu prinsiplərə uyğun olaraq, Azərbaycan mənşəli sözlərin böyük əksəriyyəti, eləcə də alınma sözlərin müəyyən hissəsi yazıldığı kimi tələffüz edilir: *badam [badam], çəpər [çəpər], ev [ev], göyərçin [göyərçin], Qarabağ [Qarabağ], oğlan [oğlan], paylaşım [paylaşım], lisey [lisey], reqlament [reqlament], yaxşı [yaxşı]* və s. Alınma sözlərin bir çoxunun təlffüzündə əsasən, tarixi-ənənəvi prinsipə üstünlük verilir. Bəzi alınma sözlər Azərbaycan ədəbi dilinin ahənginə, səciyyəvi fonotaktik və fonoloji xüsusiyyətlərinə uyğun şəkildə tələffüz edilir.

1.3. Danışıqda ədəbi dil normaları sabitləşdikcə, tələffüzlə yazı qaydaları arasındakı fərq azalır.

### 2. Saitlərin tələffüzü

2.1. Müasir Azərbaycan ədəbi dilində saitlər adi, bəzi hallarda isə qısa və uzun tələffüz olunur.

2.2. Ərəb və fars dillərindən bir çox alınma sözlərdə ***a, e, ə, i, ö, u*** saitləri uzun tələffüz olunur və bu hala, əsasən aşağıda göstərilən açıq hecalarda rast gəlinir:

2.2.1. ərəb və fars mənşəli bəzi sözlərin ***a, u, i*** saitləri ilə bitən açıq hecalarında uzanma baş verir: *adil [a:dil], mübariz [müba:riz], hökumət [höku:mət], xəzinə [xəzi:nə], xüsusi [xüsu:si], şagird [şa:girt], vəzifə [vəzi:fə]* və s.;

2.2.2. ərəb mənşəli bir çox

sözlərdə ***e, ə, ö*** saitləri mənbə dilin təsirinin nəticəsi olaraq açıq hecada və əsasən, ilk hecada uzun tələffüz olunur: *elan [e:lan], etibar [e:tibar], əla [ə:la], memar [me:mar], məna [mə:na], mötəbər [mö:təbər], təmir [tə:mir], tətil [tə:til], şölə [şö:lə]* və s.;

2.2.3. ərəb və fars mənşəli sözlərdə ***ba-, bi-, la-, na-*** ön şəkilçilərində saitlər uzun tələffüz olunur: *baməzə [ba:məzə], bitərəf [bi:tərəf], laməkan [la:məkan], narazı [na:razı]* və s.

2.3. Tərkibində eynicinsli qoşa saitlər olan ərəb mənşəli sözlər bir uzun saitlə tələffüz olunur: *bədii [bədi:], camaat [cama:t], inşaat [inşa:at], maarif [ma:rif], maaş [ma:ş], mətbəə [mətbə:], saat [sa:t], təbəə [təbə:], təəssüf [tə:ssüf], təbii [təbi:]* və s.

2.4. Avropa mənşəli sözlərdəki qoşa ***o*** saiti bir uzun ***[o:]*** və ya adi ***[a]*** səsi ilə tələffüz olunur: *kooperativ [k'aperativ], koordinasiya [k'ardinasiya], zoologiya [zo:logiya], zoopark [zo:park']* və s.

2.5. Müxtəlifcinsli qoşa saitlər aşağıdakı qaydada tələffüz olunur:

2.5.1. ***ai, ia, iə, əi, io*** yanaşı saitlərinin işləndiyi alınma sözlərin tələffüzü zamanı həmin saitlərin arasına ***[y]*** səsi artırılır: *ailə [a:yilə], dairə [da:yirə], vəsait [vəsa:yit], dialekt [diyalek't], dialoq [diyalok'], faciə [fa:ciyə], müdafiə [muda:fiyə], təbiət [təbiyət], radio [radiyo], stadion [stadiyon], zəif [zəyif]* və s.;

2.5.2. ***aə*** yanaşı saitlərinin işləndiyi sözlərdə ***a*** səsi uzun tələffüz olunur: *bəraət [bəra:ət], itaət [ita:ət], qənaət [qəna:ət]* və s.;

2.5.3. ***ae, ea, eə, əa, eo, üa, üə, au, ua, ue, uə*** yanaşı saitlərinin işləndiyi sözlər yazıldığı kimi və uzanma hadisəsi baş vermədən tələffüz olunur: *aerodrom [aerodrom], aeroport [aeroport], okean [okean], realizm [realizm], teatr [teatr], fəaliyyət [fəaliyət], səadət [səadət], teorem [teorem], müalicə [müalicə], müavin [müavin], müəllim [müəllim], müəllif [müəllif], aktual [aktual], aul [aul], dua [dua], duel [duel], maneə [maneə], məcmuə [məcmuə], mətbuat [mətbuat], pauza [pauza], Rauf [Rauf], taun [taun], Zaur [Zaur]* və s.;

***Qeyd.*** *Yanaşı* ***üa, üə*** *saitlərində* ***ü*** *səsi qısa tələffüz olunur.*

2.5.4. saitlə bitən sözün açıq saitlə başlayan sözlə birləşməsi nəticəsində yaranmış mürəkkəb sözlərin tələffüzündə birinci sözün son saiti düşür: *bacıoğlu [bacoğlu], bibioğlu [biboğlu], əliaçıq [əlaçıx], Əliağa [Əlağa], xalaoğlu [xaloğlu]* və s.

2.6. Rus və Avropa dillərindən alınmış sözlərdə vurğusuz hecalardakı ***o*** saiti vurğulu hecadan əvvəl ***[a]*** səsi ilə tələffüz olunur: *fontan [fantan], laboratoriya [labaratoriya], Moskva [Mask'va], Odessa [Adessa], samovar [samavar]* və s. *Oktyabr* və *noyabr* sözləri yazıldığı kimi deyilir.

2.7. Tərkibində ***ov, öv*** hərf birləşmələri olan sözlərdə səs düşümü hadisəsi baş vermir, fonetik prinsipə uyğun olaraq sözlər yazıldığı kimi tələffüz edilir: *cövhər [cövhər], çovğun [çovğun], dovğa [dovğa], dövlət [dövlət], mövqe [mövqe], mövsüm [mövsüm], novlu [novlu], novruz [novruz], növbə [növbə], şövkət [şövkət], şövq [şövq], tövbə [tövbə]* və s.

**3. Samitlərin tələffüzü**

3.1. Müasir Azərbaycan ədəbi dilində kar samitlər cingiltili, cingiltili samitlər isə kar tələffüz oluna bilir.

3.2. Söz ortasında eynicinsli qoşa kar samitin ***(kk, pp, tt)*** və ya müxtəlifcinsli iki kar samitin (***st, xt, sk, tk*** və s.) ikincisi cingiltili tələffüz olunur: *səkkiz [səkgiz], təşəkkür [təşəkgür], guppultu [gupbultu], hoppanmaq [hopbammax], əlbəttə [əlbətdə], xəttat [xətdat], taxta [taxda], tüstü [tüsdü], usta [usda], kəskin [kəsgin], ötkəm [ötgəm]* və s.

3.3. Söz ortasında ***qq*** cingiltili samitinin birincisi kar tələffüz olunur: *diqqət [dik'qət], müvəqqəti [müvək'qəti], saqqal [sak'qal], toqqa [tok'qa]* və s.

3.4. Söz ortasında eynicinsli digər qoşa cingiltili ***(bb, cc, dd, ll, mm, nn, rr, vv, yy, zz)*** və qoşa kar ***(ff, hh, ss, şş)*** samitlər yazıldığı kimi tələffüz olunur: *addım [addım], amma [amma], bənna [bənna], dəbbə [dəbbə], güllə [güllə], qəyyum [qəyyum], qüllə [qüllə], qüvvə [qüvvə], ləzzət [ləzzət], meşşan [meşşan], məhəccər [məhəccər], mürəbbə [mürəbbə], rəssam [rəssam], səhhət [səhhət], səyyar [səyyar], şəffaf [şəffaf], terror [terror]* və s.

3.5. Söz ortasında ***kk*** ilə yazılan rus və Avropa mənşəli sözlər bir ***[k']*** ilə tələffüz

olunur: *akkordeon [ak'ardeon], akkreditasiya [ak'reditasiya], akkumulyator [ak'umulyator]* və s.

3.6. Ərəb mənşəli sözlərdə **-iyyat, -iyyət, -iyyə** şəkilçilərindəki ***yy*** samitləri ***[y]*** kimi tələffüz olunur: *cəmiyyət [cəmiyət], davamiyyət [davamiyət], ədəbiyyat [ədəbiyat], fərziyyə [fərziyə], nəzəriyyə [nəzəriyə], riyaziyyat [riyaziyat]* və s.

3.7. Söz ortasında yanaşı gələn müxtəlifcinsli kar samitlərin ikincisi əsasən, cingiltili tələffüz olunur: *axtarış [axdarış], asfalt [asvalt], bəxtiyar [bəxdiyar], böhtan [böhdan], dəftər [dəfdər], dəstə [dəsdə], kəşfiyyat [kəşviyat], məftil [məfdil], məxfi [məxvi], müştəri [müşdəri], püstə [püsdə], saxta [saxda], şaftalı [şafdalı], taxta [taxda], təşkil [təşgil]* və s.

**Qeyd.** *Kar samitlə bitən sözlərə qoşulan fars mənşəli* ***-kar, -keş, -paz*** *şəkilçiləri fars dilindəki leksik mənasını saxladığı üçün (kar "iş", keş "çəkən", paz "bişirən") yazıldığı kimi tələffüz olunur: sənətkar [sənətkar], zəhmətkeş [zəhmətkeş], aşpaz [aşpaz] və s.*

3.8. Söz ortasında ***b, m*** samitlərindən əvvəl gələn ***n*** hərfi ***[m]*** kimi tələffüz olunur: *dinməz [dimməz], günbəz [gümbəz], sönməz [sömməz], sünbül [sümbül], şənbə [şəmbə], zanbaq [zambax]* və s.

3.9. Sonu müxtəlifcinsli ***ft, xt, st, şt*** samitləri ilə bitən sözlərin tələffüzündə aşağıdakı qaydalar gözlənilir:

3.9.1. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***t*** hərfi tələffüz olunmur: *behiştdən [behişdən], behişt müjdəsi [behiş müjdəsi], xoşbəxtsən [xoşbəxsən], xoşbəxt tale [xoşbəx tale], neftdən [nefdən], neft quyusu [nef quyusu], turist bazası [turis bazası], turistlər [turisdər]* və s.;

3.9.2. belə sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***t*** hərfi ***[d]*** kimi tələffüz olunur: *behiştin [behişdin], behişt arzusu [behişd arzusu], xoşbəxtin [xoşbəxdin], xoşbəxt adam [xoşbəxd adam], neftin [nefdin], neft axını [nefd axını], turistin [turisdin], turist avtobusu [turisd aftobusu]* və s.

3.10. Çoxhecalı, habelə bəzi təkhecalı sözlərin sonunda işlənən cingiltili ***b, c, d, g*** samitləri aşağıdakı kimi tələffüz olunur:

3.10.1. bu samitlərlə bitən sözlər ayrılıqda işləndikdə, sondakı samit karlaşır: *ağac [ağaç], cəld [cəlt], corab [corap], dinc [dinç], fənd [fənt], gənc [gənç], ismarıc [ismarıç], kənd [kənt], qanad [qanat], qəlb [qəlp], rəng [rənk], tüfəng [tüfənk]* və s.;

3.10.2. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə də son samit kar tələffüz olunur: *ağacdan [ağaçdan], ağac budağı [ağaç budağı], corablar [coraplar], corab toxuyur [corap toxuyur], qanadsız [qanatsız], qanad çalmaq [qanat çalmax], tüfəngli [tüfənkli], tüfəng qundağı [tüfənk qundağı]* və s.;

3.10.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, son samit yazıldığı kimi cingiltili tələffüz olunur: *ağacın [ağacın], ağac altı [ağac altı], corabın [corabın], corab ilməsi [corab ilməsi], qanadın [qanadın], qanad açmaq [qanad açmax], tüfəngin [tüfəngin], tüfəng almaq [tüfəng almax]* və s.

***Qeyd. Sait+samit, samit+sait+samit*** *modeli olan təkhecalı sözlərdə sondakı* ***b, c, d, g*** *samitləri cingiltili tələffüz olunur: ac [ac], ad [ad], dad [dad], qab [qab], od [od], sac [sac], ud [ud], yad [yad] və s.*

3.11. Qapalı hecalardakı ***q*** samiti aşağıdakı qaydada tələffüz olunur:

3.11.1. Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı ***q*** samiti ***[x]*** kimi tələffüz olunur: *balıq [balıx], bucaq [bucax], buruq [burux], qonaq [qonax], otaq [otax], yanacaq [yanacax]* və s.;

3.11.2. belə sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti ***[x]*** kimi tələffüz olunur: *qonaqsan [qonaxsan], qonaq sözü [qonax sözü], qonaqsevən [qonaxsevən], qonaq-qara [qonax-qara]* və s.;

3.11.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi işləndikdə, ***q*** samiti yazıda olduğu kimi, tələffüzdə də ***ğ*** səsinə keçir: *otağa [otağa], balığın [balığın], yanacağa [yanacağa], yarpağı [yarpağı]* və s.;

3.11.4. belə sözlərdən sonra saitlə başlayan söz işləndikdə (həm mürəkkəb sözlərdə, həm də söz birləşmələrində), ***q*** samiti ***[ğ]*** kimi tələffüz olunur: *bulaqotu [bulağotu], dodaqaltı [dodağaltı], uşaq oyuncağı [uşağ oyuncağı], qonaq evi [qonağ evi]* və s.;

3.11.5. ərəb mənşəli alınma

sözlərdə söz ortasında kar samitdən əvvəl işlənən ***q*** samiti ***[k´]*** kimi tələffüz olunur: *iqtisad [ik´tisat], nöqsan [nök´san], nöqtə [nök´tə], məqsəd [mək´sət], rəqs [rək´s], təqsir [tək´sir]* və s.;

3.11.6. alınma sözlərin sonundakı ***q*** samiti ***[k´]*** kimi tələffüz olunur: *filoloq [filolok'], haqq [hak'], müttəfiq [mütdəfik'], nifaq [nifak'], şəfəq [şəfək'], şərq [şərk']* və s.;

3.11.7. ***q*** hərfi ilə bitən alınma sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti ***[k']*** kimi tələffüz olunur: *üfüqdən [üfük'dən], üfüq xətti [üfük' xətdi], şərqşünas [şərk'şünas], şərq qütbü [şərk' qütbü], haqdan [hak'dan], haqq söz [hak' söz], nahaqdan [nahak'dan], nahaq danışıq [nahak' danışıx]* və s.;

3.11.8. ***q*** hərfi ilə bitən alınma sözlərdən sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, ***q*** samiti yazıldığı kimi tələffüz olunur: *təzyiqi [təzyiqi], təzyiq artdıqca [təzyiq artdıxca], üfüqə [üfüqə], üfüq arxasında [üfüq arxasında]* və s.

3.12. ***K*** hərfi ilə bitən sözlər aşağıdakı qaydada tələffüz olunur:

3.12.1. Azərbaycan mənşəli çoxhecalı sözlərin sonundakı ***k*** hərfi cingiltili ***y*** samitinin kar qarşılığı olan ***[x']*** kimi tələffüz olunur: *bələk [bələx'], çiçək [çiçəx'], çiyələk [çiyələx'], dilək [diləx'], dirrik [dirrix'], ərik [ərix'], körük [körüx']* və s.;

***Qeyd.*** *Azərbaycan əlifbasında **[x']** səsini ifadə edən ayrıca hərf olmadığı üçün həmin səs şərti olaraq **y** samitinin kar qarşılığı kimi qəbul edilmişdir.*

3.12.2. bu qəbildən olan sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti ***[x']*** kimi tələffüz olunur: *çiçəklər [çiçəx'lər], çiçək dərdim [çiçəx' dərdim], diləksiz [diləx'siz], dilək tutmaq [diləx' tutmax], ərikdən [ərix'dən], ərik mürəbbəsi [ərix' mürəbbəsi], körükdə [körüx'də], körük basmaq [körüx' basmax]* və s.;

3.12.3. belə sözlərdən sonra saitlə başlayan şəkilçi işləndikdə, ***k*** samiti yazıda olduğu kimi tələffüzdə də ***[y]*** səsinə keçir: *çiçəyin [çiçəyin], diləyimiz [diləyimiz], əriyə [əriyə], körüyü [körüyü]* və s.;

3.12.4. belə sözlərdən sonra saitlə başlayan söz işləndikdə, ***k*** samiti ***[y]*** kimi tələffüz olunur: *çiçək ətri [çiçəy ətri], döşəküzü [döşəyüzü], ərik ağacı [əriy ağacı], kəklikotu [kəkliyotu]* və s.;

3.12.5. Azərbaycan mənşəli təkhecalı sözlərin sonundakı ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *bərk [bərk], börk [börk], görk [görk], tək [tək], tük [tük], türk [türk]* və s. Belə sözlərdən sonra saitlə və ya samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *bərk odun [bərk odun], börkdə [börkdə], görk üçün [görk üçün], türkün [türkün], türklər [türklər], türk dövlətləri [türk dövlətləri], türk ordusu [türk ordusu]* və s.;

3.12.6. ərəb və fars mənşəli təkhecalı və çoxhecalı sözlərin sonundakı ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *çirk [çirk], əmlak [əmlak], idrak [idrak], mübarək [müba:rək], şərik [şərik], tədarük [tədarük], tərk [tərk]* və s. Belə sözlərdən sonra saitlə və ya samitlə başlayan şəkilçi və ya söz işləndikdə də ***k*** samiti ***[k]*** kimi tələffüz olunur: *çirkli [çirkli], şərikli çörək [şərikli çörəx´], tərk etmək [tərk etməx´], əmlakdan [əmlakdan], əmlakımız [əmlakımız], əmlak ortağı [əmlak ortağı], əmlak toxunulmazlığı [əmlak toxunulmazlığı]* və s.

3.13. Rus və Avropa mənşəli iki və daha çox hecalı sözlərdə ***k*** hərfi özündən sonra incə sait gəldikdə ***[k]*** kimi (*anket, buket, okean* və s.), qalın sait və samit gəldikdə isə ***[k´]*** kimi tələffüz olunur: *ekran [ek'ran], koronavirus [k´aronavirus], aktual [ak'tual]* və s.

***Qeyd.*** *Rus və Avropa mənşəli təkhecalı sözlərin sonundakı **k** samiti **[k´]** kimi tələffüz olunur: bank [bank'], fakt [fak't], feyk [feyk´], tank [tank´] və s.*

**4. Şəkilçilərin tələffüzü**

4.1. Üçüncü şəxsin təkini bildirən ***-dır⁴*** xəbərlik şəkilçisi ***[-dı⁴]*** kimi tələffüz olunur: *ağıllıdır [ağıllıdı], doludur [doludu], gözəldir [gözəldi], gözləməlidir [gözdəməlidi], istəyəsidir [isdiyəsidi], səfərdədir [səfərdədi], üstünlükdür [üsdünnüx'dü], yaxınlıqdadır [yaxınnıxdadı], yaxşıdır [yaxşıdı]* və s.

4.2. İkinci şəxsin cəmini bildirən ***-sınız⁴*** xəbərlik şəkilçisi ***[-sız⁴]*** kimi tələffüz olunur: *bacısınız [bacısız], böyüksünüz [böyüx'süz], gəlirsiniz [gəlirsiz], gözəlsiniz [gözəlsiz], qohumsunuz [qohumsuz], qorxursunuz [qorxursuz], ölçürsünüz [ölçür-*

*süz]* və s.

4.3. Zərf düzəldən **-la²** şəkilçisi, həmçinin ilə bağlayıcısı və qoşmasının şəkilçiləşmiş **-la²** forması ***[-nan²]*** şəklində vurğusuz tələffüz olunur: *atamla anam [atamnan anam], bacımla [bacımnan], cəsarətlə [cəsa:rətnən], qələmlə [qələmnən], namusla [namusnan], sürətlə [sürətnən], telefonla [telefonnan]* və s.

*Qeyd.* ***İlə*** *bağlayıcısı və qoşması saitlə bitən sözlərə qoşulduqda,* ***[-ynan], [-ynən]*** *kimi tələffüz olunur: atası ilə [atasıynan], dostu ilə [dostuynan], gözü ilə [gözüynən], nənəsi ilə babası [nənəsiynən babası] və s.*

4.4. **-dan²** çıxışlıq hal şəkilçisi ***m, n*** hərfləri ilə bitən sözlərə qoşulduqda, ***[-nan²]*** kimi tələffüz olunur: *adamdan [adamnan], bədəndən [bədənnən], gözümdən [gözümnən], meydandan [meydannan]* və s.

4.5. **A, ə** saitləri ilə bitən çoxhecalı sözlərə **y** bitişdirici samiti ilə başlayan qrammatik şəkilçilər ***(-ya², -yır⁴, -yar², -yan², -yacaq², -yası², -yaraq², -yarkən², -yıb⁴, -yınca⁴*** və s.) qoşulduqda, bu saitlər özündən əvvəlki hecaya uyğun qapalı saitlə ***([ı], [i], [u], [ü])*** tələffüz olunur: *almayacaq [almıyacax], anaya [anıya], bağlayır [bağlıyır], başlayar [başdıyar], dəvəyə [dəviyə], gözləyəsidir [gözdüyəsidi], kölgəyə [kölgüyə], oxşayan [oxşuyan], oynayınca [oynuyunca], söyləyən [söylüyən]* və s.

4.6. **L** samiti ilə başlayan bəzi şəkilçilər **d, n, r, s, ş, t, z** samitləri ilə bitən sözlərə qoşulduqda, şəkilçinin ilk samiti assimilyasiyaya uğrayaraq fərqli tələffüz olunur:

4.6.1. **-lı⁴** şəkilçisi ***[-dı⁴], [-rı⁴], [-nı⁴]*** kimi tələffüz olunur: *atlı [atdı], canlı [cannı], dəyərli [dəyərri], duzlu [duzdu], qanadlı [qanatdı], qanlı [qannı], qarlı [qarrı], səsli [səsdi], söyüdlü [söyütdü], sözlü [sözdü]* və s.;

4.6.2. **-lıq⁴** şəkilçisi ***[-dıx⁴], [-rıx⁴], [-nıx⁴]*** kimi tələffüz olunur: *birlik [birrix'], daşlıq [daşdıx], qaranlıq [qarannıx], memarlıq [me:marrıx], pərtlik [pərtdix'], sərtlik [sərtdix'], uzunluq [uzunnux], yazlıq [yazdıx]* və s.;

4.6.3. **-la²** şəkilçisi ***[-da²], [-ra²], [-na²]*** kimi tələffüz olunur: *banlamaq [bannamax], dərmanlamaq [dərmannamax], düyünləmək [düyünnəməx'], hazırlamaq [hazırramax], təmizləmək [təmizdəməx']* və s.;

4.6.4. **-lan²** şəkilçisi ***[-dan²], [-nan²], [-ran²]*** kimi tələffüz olunur: *alqışlanmaq [alqışdammax], canlanmaq [cannammax], cəsarətlənmək [cəsa:rətdəmməx'], tumarlanmaq [tumarrammax], zəhərlənmək [zəhərrəmməx']* və s.;

4.6.5. **-laş²** şəkilçisi ***[-daş²], [-raş²], [-naş²]*** kimi tələffüz olunur: *cavanlaşmaq [cavannaşmax], dərdləşmək [dərtdəşməx'], fikirləşmək [fikirrəşməx'], qatarlaşmaq [qatarraşmax]* və s.;

4.6.6. **-lar²** şəkilçisi ***[-dar²], [-rar²], [-nar²]*** kimi tələffüz olunur: *alətlər [a:lətdər], atlar [atdar], buludlar [bulutdar], dənizlər [dənizdər], əsgərlər [əsgərrər], qızlar [qızdar], mislər [misdər], narlar [narrar], oğlanlar [oğlannar], sərhədlər [sərhətdər], səslər [səsdər]* və s.;

4.6.7. **-laq** şəkilçisi ***[dax]*** kimi tələffüz olunur: *duzlaq [duzdax], qışlaq [qışdax], otlaq [otdax]* və s.

4.7. Feildən isim və ya sifət düzəldən ***-ki, -kü; -kin, -kün; -kən*** şəkilçiləri kar samitlə bitən sözlərə qoşulduqda, şəkilçidəki ***k*** samiti ***[g]*** kimi tələffüz olunur: *döyüşkən [döyüşgən], itkin [itgin], kəskin [kəsgin], küskün [küsgün], səpki [səpgi], sürüşkən [sürüşgən], sürtkü [sürtgü]* və s.

4.8. ***Q*** samiti ilə bitən şəkilçilər ***(-ıq, -uq; -aq, -q; -lıq, -luq; -laq; -caq; -cıq; -araq; -acaq; -anaq*** və s.) söz sonunda və ya samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[x]*** kimi tələffüz olunur: *bolluq [bollux], bozaraq [bozarax], daraq [darax], dayanacaq [dayanacax], oyuncaq [oyuncax], saçaq [saçax], tozanaq [tozanax], yaylaq [yaylax]* və s.

4.9. ***K*** samiti ilə bitən şəkilçilər ***(-ik, -ük; -ək, -k; -lik, -lük; -lək; -cək; -cik, -cük; -ərək; -əcək; -ənək*** və s.) söz sonunda və samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[x']*** kimi tələffüz olunur: *bəzək [bəzəx'], biçənək [biçənəx'], döşək [döşəx'], evcik [evcix'], əlcək [əlcəx'], əzik [əzix'], gələcək [gələcəx'], gəlincik [gəlincix'], işlək [işdəx'], sönərək [sönərəx'], sönük [sönüx'], şənlik [şənnix'], üzlük [üzdüx'], yelləncək [yelləncəx']* və s.

4.10. ***M*** və ***n*** samitləri ilə bitən sözlərdən sonra işlənən **-dan²** çıxışlıq hal şəkilçisi ***[-nan²]*** şəklində tələffüz olunur: *qardaşımdan [qardaşımnan], mən-*

*dən [mənnən], oğlandan [oğlannan], ondan [onnan], sözümdən [sözümnən], üzümdən [üzümnən], vətəndən [vətənnən]* və s.

4.11. ***C*** samiti ilə bitən ***-ınc***[4]***; -qac***[2]***, -ğac***[2]***; -c*** və s. şəkilçilər söz sonunda və samitlə başlayan digər şəkilçidən əvvəl işləndikdə, ***[ç]*** kimi tələffüz olunur: *gülünc [gülünç], inanc [inanç], qazanc [qazanç], sayğac [sayğaç], sevinc [sevinç], süzgəc [süzgəç], tıxac [tıxaç], tutqac [tutqaç]* və s.

4.12. Qoşa kar samitlə bitən təkhecalı sözlərdən ***(həkk, şəkk, xətt*** və s.) sonra saitlə başlayan şəkilçi və ya söz işləndikdə, qoşa kar samitin ikincisi cingiltili tələffüz olunur: *şəkkin [şəkgin], şəkk etmək [şəkg etməx´], həkk olunmaq [həkg olummax], xəttin [xətdin], xəttat [xətdat], xətt üstündə [xətd üsdündə]* və s.

4.13. Müxtəlifcinsli samitlərlə bitən ***elm, fəhm, həcm, hökm, rəhm, rəsm, sehr, səhm, sədr, üzr, üzv, zəhm, zülm*** kimi ərəb mənşəli təkhecalı sözlərə samitlə başlayan şəkilçi qoşulduqda, tələffüz zamanı söz kökündəki samitlər arasına qapalı sait əlavə edilir: *elmli [elimli], hökmdar [hökümdar], hökmsüz [hökümsüz], rəhmli [rəhimli], sehrli [sehirri], sədrlik [sədirrix´], səhmdar [səhimdar], üzrsüz [üzürsüz], üzvlük [üzüvlüx'], zəhmli [zəhimli]* və s.

4.14. ***İdi, imiş*** hissəcikləri saitlə bitən sözlərə qoşulduqda, ***[-ydı], [-ydi], [-ymış], [-ymiş]*** şəklində tələffüz olunur: *dərməli idi [dərməliydi], dərməli imiş [dərməliymiş], qazası idi [qazasıydı], qazası imiş [qazasıymış]* və s.

4.15. ***-stan (-ıstan, -istan, -ustan, -üstan)*** şəkilçilərindəki ***t*** kar samiti ***[d]*** kimi tələffüz olunur: *Ərəbistan [Ərəbisdan], gülüstan [gülüsdan], Qazaxıstan [Qazaxısdan], Monqolustan [Monqolusdan], Türküstan [Türküsdan]* və s.

4.16. ***-dıqda, -dikdə, -duqda, -dükdə; -dıqca, -dikcə, -duqca, dükcə; -araq, -ərək*** şəkilçilərindəki ***q*** hərfi ***[x]*** kimi, ***k*** hərfi isə ***[x']*** kimi tələffüz olunur: *dincəldikcə [dincəldix'cə], gəldikdə [gəldix'də], qalaraq [qalarax], gördükcə [gördüx'cə], oxuduqca [oxuduxca], öyrənərək [öyrənərəx']* və s.

## 5. İxtisarların və qısaltmaların tələffüzü

5.1. İxtisarlar onları təşkil edən hərflərin sayından, sait və samit hərflərin yerləşməsindən, yalnız samit və ya sait hərflər əsasında formalaşmasından asılı olaraq aşağıdakı kimi tələffüz olunur:

5.1.1. ixtisarlar yalnız sait və ya samit hərflərdən ibarət olduqda, onlar hərflərin əlifbadakı adlarına uyğun tələffüz olunur: *Elmlər Akademiyası - EA [E-A], Dövlət Təhlükəsizliyi Xidməti - DTX [De-Te-Xe], Bakı Şəhər Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyası - BŞTTTYS [Be-Şe-Te-Te-Te-Ye-Se]* və s.;

5.1.2. sait və samit hərflərdən ibarət olan ixtisarlar sait hərflərin yerləşməsindən asılı olaraq aşağıdakı kimi tələffüz olunur:

1. ixtisardakı birinci hərf sait, ondan sonra gələn bütün hərflər samit olduqda, hərflər əlifbadakı adlarına uyğun tələffüz olunur: *Avropa Şurası - AŞ [A-Şe], Amerika Birləşmiş Ştatları - ABŞ [A-Be-Şe], Ümumdünya Demokratik Gənclər Federasiyası - ÜDDGF [Ü-De-De-Ge-Fe]* və s.;

2. sait hərf ixtisarın ortasında və ya sonunda olduqda, ondan əvvəl və ya sonra gələn samit hərflər yazı qaydasına uyğun tələffüz olunur: *Yeni Azərbaycan Partiyası - YAP, Bütöv Azərbaycan Birliyi - BAB, Dünya Azərbaycanlıları Konqresi - DAK, Xəzər Dəniz Gəmiçiliyi Texniki İstehsalat Birliyi - XDGTİB [Xe-De-Ge-TİB], Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti - KHVTİC [Ke-He-Ve-TİC]* və s.;

3. tərkibində iki və daha artıq sait hərf olan ixtisarlar əsasən, heca tələffüzü ilə deyilir: *NATO [NA-TO], ATƏT [A-TƏT], AMEA [A-ME-A], Kama avtomobil zavodu - KAMAZ [KA-MAZ]* və s.;

5.1.3. tərkibində ***L, M, N, R*** hərfləri olan ixtisarlarda, həmin hərflərdən əvvəl gələn digər samit hərfin adındakı sait səs nisbətən uzun tələffüz olunur: *Birləşmiş Millətlər Təşkilatı - BMT [Be:M-Te], AFR [A-Fe:R], Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - ƏƏSMN [Ə-Ə-Se:M-eN], Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi - BŞMŞBİ [Be-Şe:M-Şe-Bİ]* və s.

5.2. Bəzi qısaltmalar yazıldığı kimi tələffüz olunur: *Azərnəşr [Azərnəşr], Azneft [Azneft]* və s.

**6. Vurğunun tələffüzü**

6.1. Azərbaycan dilində vurğu əsasən, sözün son hecasına düşür. Bu, keçici sabit vurğudur: *kita´b - kitablar - kitabları´m - kitablarımda´n, gözə´l - gözəllə´ş - gözəlləşdi´r - gözəlləşdiri´l - gözəlləşdiriləcə´k* və s.

6.2. Rus və Avropa mənşəli sözlərdə vurğu əsasən, mənbə dilə uyğun olaraq işlədilir: *angi´na, apelya´siya, arxite´ktor, fa´ktor, fanta´ziya, kuri´kulum, qalere´ya, qa´lstuk, li´der, lo´bbi, loka´l* və s.

***Qeyd.*** *Azərbaycan dilində dəyişikliyə məruz qalan rus və Avropa mənşəli sözlərdə vurğu sonda işlənir: apte´ka - apte´k, qaze´ta - qəze´t, proqra´mma - proqra´m və s.*

6.3. Tələffüz zamanı vurğusu dəyişməklə mənası dəyişən sözlər nəzərə alınır: *akade´mik (isim) - akademi´k (sifət), antibio´tik (isim) - antibioti´k (sifət), ele´ktrik (isim, kim?) - elektri´k (isim, nə?), kla´ssik (isim) - klassi´k (sifət), xü´lasə (modal söz) - xülasə´ (isim), mü´tləq (zərf) - mütlə´q (sifət), nə´hayət (modal söz) - nəhayə´t (isim), rito´rik (isim) - ritori´k (sifət), qaça´raq (feili bağlama) - qaçara´q (zərf), çapa´raq (feili bağlama) - çapara´q (zərf)* və s.

6.4. Bəzi son şəkilçilər vurğusuz tələffüz olunur:

6.4.1. isim düzəldən ***-gil, -ov (-ova), -yev (-yeva)*** şəkilçiləri vurğusuz tələffüz olunur: *qardaşı´mgil, əmi´mgil; Ağa´yev, Sulta´nov* və s.;

6.4.2. zərf düzəldən ***-la$^2$ [-nan$^2$], -ca$^2$, -casına$^2$, -ən*** şəkilçiləri vurğusuz tələffüz olunur: ina´dla, qəhrəmanlı´qla, cəsarə´tlə, ingili´scə, tü´rkcə, ya´şca, xai´ncəsinə, namə´rdcəsinə, qəhrəma´ncasına, insa´fən, qə´flətən, da´xilən və s.;

6.4.3. xəbərlik (şəxs) şəkilçiləri vurğusuz tələffüz olunur:

1. 1-ci şəxs ***-am$^2$ (-yam$^2$), -ıq$^4$ (-yıq$^4$):*** *aza´dam, aza´dıq, oxumalı´yam, oxumalı´yıq* və s.;

2. 2-ci şəxs ***-san$^2$, -sınız$^4$, -ın$^4$:*** *aza´dsan, aza´dsınız, oxumalı´sınız, oxu´yun* və s.;

3. 3-cü şəxs ***-dır$^4$, -dırlar$^4$, -lar$^2$:*** *aza´ddır, aza´ddırlar, oxumalı´dır, oxumalı´dırlar, oxuyu´rlar* və s.;

***Qeyd.*** *Feilin şərt şəkli, xəbər şəklinin şühudi keçmiş zamanı şəxsə görə təsriflənərkən şəxs sonluqları vurğulu tələffüz olunur (oxusanı´z, oxusala´r, oxudunu´z, oxudula´r və s.), əmr şəkli şəxsə görə dəyişərkən 1-ci və 3-cü şəxslərdə şəxs sonluğu vurğulu tələffüz olunur (oxuyu´m, oxusu´n, oxuya´q, oxusunla´r və s.).*

6.4.4. feil şəkillərinin hekayəti ***idi (-dı$^4$)***, rəvayəti ***imiş (-mış$^4$)***, şərti isə ***(-sa$^2$)*** şəkilçi kimi sözə bitişik yazıldıqda vurğu qəbul etmir: oxuyaca´qdı, oxuyaca´qmış, oxuyaca´qsa və s.;

***Qeyd.*** *Müasir Azərbaycan dilində **-arkən$^2$, -mışkən$^4$** feili bağlama şəkilçisinin formalaşmasında iştirak edən **-kən (-ikən)** hissəciyi vurğusuz tələffüz olunur: oxuya´rkən, oxumu´şkən, deyə´rkən, demi´şkən və s.*

6.4.5. ***-ma$^2$, -mə$^2$, -m*** inkar şəkilçisi vurğusuz tələffüz olunur: *oxu´madı, bi´lmədi; oxu´mayacaq, bi´lməyəcək, oxu´mur, bi´lmir* və s.;

*Qeyd. Xəbər şəklinin indiki zamanından fərqli olaraq, qeyri-qəti gələcək zamanda inkar şəkilçisi **(-m)** işlənmiş heca vurğulu tələffüz olunur: oxuma´ram, bilmə´rəm; oxuma´zsan, bilmə´zsən və s.*

6.4.6. ***ilə*** bağlayıcısının və qoşmasının şəkilçiləşmiş ***-la$^2$ [-nan$^2$]*** forması, ***-mı$^4$*** sual ədatı vurğusuz tələffüz olunur: *torpağı´mla, ölkə´mlə, ata´mla ana´m; oxudu´nmu, bildi´nmi; oxuyu´rmu, bili´rmi* və s.

6.5. Sözdən xitab kimi istifadə olunduqda vurğu əvvəlki hecalara keçə bilər: *Azərbayca´n - Azə´rbaycan, Vətə´n - Və´tən* və s.

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 16 Tiraj:1000 ədəd